Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 114 (8137) ŞƏNBƏ, 25 may 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İLHAM ƏLİYEVə bütün Azərbaycan xeyir-dua verir

Prezident yalnız inkişafın, quruculuğun və islahatların təkmil modellərini yaratmır, ən əsası, yeni dövr liderliyin, mükəmməl idarəçiliyin, şəffaf və hesabatlı fəaliyyətin meyarlarını formalaşdırır

Ölkədəki dinamik inkişafın, genişmiqyaslı quruculuğun əyani təzahürlərindən biri də Prezidentin iştirakı ilə mütəmadi keçirilən açılışlar, təməlqoyma mərasimləridir. Bu tədbirlərin mahiyyətini yalnız yeni müəssisələrin və yüzlərlə iş yerinin yaradılması, yaxud əhalinin qayğılarını azaldan, istirahət hüququnu təmin edən sosial infrastrukturların istifadəyə verilməsi ilə məhdudlaşdırmaq düzgün olmazdı.
Çünki onlar həm də Prezidentə vətəndaşlarının müxtəlif zümrələri ilə görüşmək imkanı verən, əhalinin çətinliklərini, rəylərini öyrənməyə şərait yaradan fürsətlərdir.

### İlham Əliyevin ekspromtları

İlham Əliyevin liderlik istedadının, siyasi peşəkarlığının ən üstün məziyyətləri də məhz bu görüşlərdə öz təntənəsini yaşayır. Ən mühüm cəhət odur ki, bütün görüşlər ekspromt alınır. Məsələn, elə son üç günün iki tədbirinə nəzər salaq.

Paytaxt qəsəbə və kəndlərinin yeni nəqliyyat dəhlizini formalaşdıracaq, yüz minlərlə insanın hərəkətini, fəaliyyətini daha da effektivləşdirəcək Bakı sərnişin - Sabunçu dəmiryol xətti üzrə görülən işlərin vəziyyəti barədə məlumat almaq üçün Prezident yeni vağzal kompleksinin açılışına gəlir. Ölkə rəhbərinin qrafiki konkretdir: təkmilləşən dəmir yolu infrastrukturu ilə tanışlıq.

Amma İlham Əliyev əsl liderdir, idarəçilik metodları da hansısa basma-qəliblə, qrafiklə hüdudlanmır. O, xalqına ərməğanı olan bu yeni layihəsi vəsiləsiylə vətəndaşları ilə görüşmədən iş kabinetinə əsla qayıtmaz. Və bu minvalla Prezident qəfildən hərəkət istiqamətini dəyişərək əhaliyə doğru yönəlir. Yəni yeni vağzal kompleksinin açılışına yox, ilk növbədə vətəndaşın qarşısına gedir. Onları dinləyir, suallar verir, ölkədəki islahatların məğzi barədə qısa da olsa danışır.

Ardınca yenə də Prezident ekspromtuna şahid oluruq. Bu dəfə İlham Əliyev anidən mağazaya daxil olur. Satıcılar və müştərilər bir anda qarşılarında liderlərini görmək sevincini, həm də şokunu yaşayırlar. Yenə də suallar, cavablar, rəylər...

Vağzala doğru iki yüz metrlik qısa məsafəni Prezident uzun müddətə qət edir. Hər addamda bir vətəndaşının əlini sıxır, qucaqlaşır, şəkil çəkdirir, dərdini dinləyir, tapşırıq verir...

Yaxud Mərkəzi parkın açılışında İlham Əliyev və xanımı tək paytaxtın deyil, ümumilikdə Qafqazın ən modern istirahət mərkəzlərindən biri olacaq məkanla tanışlıqdan sonra avtomobillərinə doğru deyil, yenə də xalqa yönəlirlər. Füzuli küçəsi boyunca, dahi şairin abidəsi önündə bir anda möhtəşəm qələbəlik yaşanır. Evinə gedənlər, parkda istirahətə gələnlər, yolu keçənlər, bir sözlə, sadə vətəndaşlar qəfildən Prezident və xanımı ilə qarşılaşırlar...

Yenə də qucaqlaşmalar, səmimi söhbətlər, sual-cavablar, problemlərin dinlənilməsi, müvafiq tapşırıqların verilməsi...

### İlham Əliyevi görəndə qəzəb də itir, çətinlik də unudulur...

Demək olar ki, həftədə azı üç-dörd dəfə qarşılaşdığımız bu mənzərə bizlər üçün adiləşsə də, etiraf etməliyik: bu görüşlər dünyada az rastlanan xalq-lider ünsiyyətinin, sağlam qarşılıqlı münasibətlərin, birmənalı etimadın ən yüksək göstəriciləridir.

Xalqına bu qədər yaxın olan LİDERə az təsadüf olunur...

İlham Əliyev haqlı olaraq xalqına güvənir...

Həm də daim xalqının yanındadır.

Bəyəm biz bunu elə bir neçə ay öncə zəlzələ bölgəsində - Şamaxıda, Ağsuda, İsmayıllıda görmədik?!.

Bir silkələnməylə əmlakını, varidatını, yaşayışını itirən, narahatlıq, nigaranlıq içində olan insanlar qarşılarında İlham Əliyevi görərkən keçirdikləri hissləri, üzlərindəki ifadəni hamımız televiziyadan izlədik.

Bu əsəbi insanlar bir anın içində sakitləşdilər, Liderlərinə, onun şəxsində dövlətlərinə sarıldılar!

Ardı 5-ci səh.

# Azərbaycan dünyada öz milli-mənəvi dəyərlərinə sadiq qalan tolerant ölkə kimi tanınır



Mayın 23-də Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə müqəddəs ramazan ayı münasibətilə öz iqamətgahında iftar süfrəsi açıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iftar mərasimində iştirak edib.

İftar mərasimi "Qurani-Kərim"dən ayələrin və Ramazan duasının oxunması ilə başladı.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam **Allahşükür PAŞAZADƏ** mərasim iştirakçılarını salamlayaraq dedi:

- Bismillahir-rəhmanir-rəhim.

Möhtərəm cənab Prezident İlham Əliyev.

Dəyərli qonaqlar.

Allah-Təalanın mübarək ramazan ayının iftar süfrəsində Sizləri salamlayır, qonaqlarımıza, xüsusən dövlətimizin başçısı, möhtərəm Prezidentimiz İlham Əliyev cənablarına məclisimizdə iştirak etdiyinə görə Azərbaycan dindarları adından və şəxsən öz adımdan salam-dualarımı və dərin minnətdarlığımı bildirirəm. Burada iştirak edən dəyərli din və dövlət xadimlərinə, dini konfessiya rəhbərlərinə, deputatlara, xarici ölkələrin nümayəndələrinə təşəkkür edirəm.

Qurani-Kərimin nazil olduğu, duaların qəbul edildiyi mübarək ramazan ayında iftar mərasimində Sizinlə görüşmək böyük dəyər kəsb edən əlamətdar ənənəyə çevrilib. Bu qardaşlıq məclisini bizlərə böyük insan, dahi dövlət xadimi, mənim unudulmaz, əziz qardaşım ulu öndər Heydər Əliyev əmanət edib.

Ardı 2-3-cü səh.

# Azərbaycan ilə Rusiya arasında strateji tərəfdaşlığa əsaslanan ikitərəfli münasibətlər bütün sahələrdə uğurla inkişaf edir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 24-də Rusiya Federasiyasının əmək və sosial müdafiə naziri Maksim Topilini qəbul edib.



AZƏRTAC xəbər verir ki, söhbət zamanı Azərbaycan ilə Rusiya arasında strateji tərəfdaşlığa əsaslanan ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, sosial təminat sahəsində əlaqələr, təcrübə mübadiləsi məsələləri müzakirə edildi.

Görüşdə Rusiyada və Azərbaycanda sosial sahənin müxtəlif istiqamətləri ilə bağlı həyata keçirilən islahatlardan danışıldı, təcrübə mübadiləsinin aparılması üçün yaxşı imkanların olduğu qeyd edildi. Eyni zamanda, Maksim Topilinin səfəri zamanı müvafiq nazirliklər arasında imzalanacaq sazişin əhəmiyyətinə toxunuldu.

Söhbət zamanı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

28 May - Respublika Günü münasibətilə Sizi və Azərbaycan xalqını Amerika xalqı adından və şəxsən öz adımdan təbrik edirəm. 1918-ci ildə həmin gün Azərbaycanın müstəqilliyi elan olunub və Azərbaycan Xalq Cümhuriyyəti yaradılıb. Yüz ildən artıq bir vaxt keçdikdən sonra Amerika Birləşmiş Ştatları bütün azərbaycanlılarla birlikdə bu nailiyyətləri qeyd etməkdən məmnundur.

Dövlətlərimiz arasında bir çox ortaq maraqlar üzərində qurulmuş güclü tərəfdaşlıq mövcuddur. Azərbaycanın beynəlxalq təhlükəsizliyə verdiyi töhfələri və "Cənub qaz dəhlizi" təşəbbüsünü irəli sürməklə Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsində Sizin liderliyinizi dəyərləndirirəm. Azərbaycanda islahatlar istiqamətində, xüsusilə də qanunun aliliyi sahəsində Azərbaycan xalqının mənafeyinə xidmət edəcək və əməkdaşlığımızın dərinləşməsi üçün imkanlar yaradacaq bütün addımları alqışlayırıq. Həmçinin Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə və dayanıqlı həlli istiqamətində ATƏT-in Minsk qrupu prosesində Sizin şəxsi iştirakınızı təqdir edirik.

Tərəfdaşlığımızın gələcək illərdə də inkişaf etməsini səmimiyyətlə arzulayıram.

Xahiş edirəm, bu əlamətdar ildönümü münasibətilə bir daha təbriklərimi və ən xoş arzularımı qəbul edəsiniz.

*Hörmətlə,*

***Donald TRAMP,***
***Amerika Birləşmiş Ştatlarının Prezidenti***

# Məcburi köçkünlərə dövlət qayğısının nümunəvi göstəriciləri



Ermənistanın işğalçılıq siyasətindən əziyyət çəkənlər üçün son 13 ildə 100-dən çox köçkün qəsəbəsi və şəhərciyi salınıb, 50 min ailə yeni mənzillərlə təmin olunub

Ötən əsrin 80-ci illərindən başlayaraq Ermənistan tərəfindən Azərbaycan ərazilərinin işğalı ölkədə bir milyondan artıq qaçqın-köçkün ordusunun yaranmasına səbəb oldu. Münaqişənin genişlənərək müharibəyə çevrilməsi müstəqilliyini yenicə əldə etmiş Azərbaycanı çıxılmaz vəziyyətə saldı.

Məhz ümummilli lider Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışı ilə cəbhədə vəziyyət dəyişdi. Ali Baş Komandan Heydər Əliyevin əmri ilə ordu hissələrimiz əks-hücuma keçərək düşməni işğal etdiyi ərazilərimizin müəyyən hissəsindən çıxardı. Bu, ilk növbədə ordu quruculuğunda çox mühüm addım idi. Həmin ərəfədə atəşkəs elan olundu. Məhz bundan sonra ölkədəki məcburi köçkünlərin həyat və sosial-məişət şəraitlərinin yaxşılaşdırılması istiqamətində tədbirlər həyata keçirilməyə başlandı.

### Son 13 ildə 400 mindən çox məcburi köçkün işlə təmin olunub

Hələ 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev seçkiqabağı vədlərində bildirmişdi ki, müvəqqəti salınan bütün çadır şəhərcikləri 5 il ərzində ləğv ediləcək.

Ardı 5-ci səh.

# Prezidentin regional inkişaf strategiyası bölgələrin sosial simasını dəyişmiş, iqtisadi gücünü artırmışdır

2004-cü ildən başlayaraq regionların sosial-iqtisadi inkişafına dair qəbul edilən dövlət proqramları ölkəmizin ümumi inkişafında önəmli rol oynayır. Bu proqramların icrası Azərbaycanın hərtərəfli tərəqqisinin təmin edilməsinə, paytaxtla regionlar arasında fərqin azalmasına səbəb olur.

Təsadüfi deyil ki, proqramların qəbulundan sonra regionlarda minlərlə kiçik, orta və böyük həcmli müəssisələr istifadəyə verilmiş, münbit infrastruktur yaradılmış, turizm inkişaf etmiş, aqrar sektorda məhsul istehsalı dəfələrlə artmışdır. Uğurla icra olunan dövlət proqramları, həmçinin regionlardakı şəhər, qəsəbə və kəndlərin simasını dəyişmiş, sosial-iqtisadi inkişaf potensiallarının artmasına, biznes və investisiya mühitinin, infrastruktur təminatının yaxşılaşmasına, əhalinin rifahının yüksəlməsinə şərait yaranmışdır.

Prezident İlham Əliyevin bölgələrə mütəmadi səfərləri dövlət proqramlarının icrasını sürətləndirməklə, regionların hərtərəfli inkişafının təmin edilməsi, yeni iş yerlərinin yaradılması və əhalinin həyat səviyyəsinin yüksəldilməsi sahəsində görülən işlərə təkan vermişdir. Dövlət başçısı proqramların icra olunduğu dövr ərzində 1800-dən çox infrastruktur obyektlərinin açılış və təməlqoyma mərasimlərində iştirak etmiş, istehsal təyinatlı müəssisələrin fəaliyyəti ilə tanış olmuş, sahibkarlarla görüşlər keçirmiş, qaldırılan məsələlərlə maraqlanmışdır. Prezident yerlərdə olunan müraciətləri və dövlət proqramlarının tələblərini nəzərə alaraq bölgələrdəki şəhər və rayonların sosial-iqtisadi inkişafının sürətləndirilməsi istiqamətində 650-dək sərəncam imzalamışdır. Həmin sənədlərin imzalanması regionlarda çoxlu istehsal, sənaye, emal və sosial təyinatlı obyektlərin tikintisinə imkan yaratmışdır.

Ardı 5-ci səh.

# Azərbaycan dünyada öz milli-mənəvi





Əvvəli 1-ci səh.





Hər il biz Heydər Əliyev şəxsiyyətinin dəyər və miqyasını, ucalıq və müdriklik zirvəsini bir daha kəşf edir, əziz xatirəsini böyük ehtiramla yad edirik. Ulu öndər bizə müstəqil dövlət, möhkəm din-dövlət münasibətləri, nadir multikultural mədəniyyət nümunəsini əmanət edib. Xalqımıza, dövlətimizə müdrik rəhbər bəxş etmiş dahi Heydər Əliyevə və möhtərəm Zərifə xanıma Allah rəhmət eləsin, ruhları şad olsun.

Zati-aliləri, Azərbaycan torpağına qədəm basan hər kəsin şahidi olduğu tərəqqi və uğurların təməlində Sizin - dövlət başçısının fəaliyyəti və müdrik siyasəti durur. Sizin həyata keçirdiyiniz siyasətin yaşam gücü dövlət - xalq birliyində, Prezident - vətəndaş həmrəyliyindədir. Bu, həm siyasi, həm mənəvi baxımdan ən düzgün yoldur.

Azərbaycan tarixən dinlərarası tolerantlıq və multikulturalizm mühitinin təşəkkül tapmasına böyük önəm verib. Mədəniyyətlərarası əməkdaşlığa dair onillik tarixə malik "Bakı Prosesi"nin müəllifi məhz dövlət başçısı möhtərəm İlham Əliyevdir. Azərbaycanın Birinci vitse-prezidenti möhtərəm Mehriban xanım Əliyevanın ölkəmizdə və beynəlxalq aləmdə genişmiqyaslı fəaliyyəti, milli-mənəvi irsimizi yüksək səviyyədə təbliğ etməsi, ümumbəşəri dəyərlərə diqqəti və himayəsi Azərbaycanın bu istiqamətdə söz sahibinə çevrilməsinə xidmət edir, dünyaya təqdim olunan Azərbaycan modeli sivilizasiyalararası dialoq, dinlər və mədəniyyətlərarası əməkdaşlığın inkişafına öz töhfəsini verir.

Möhtərəm cənab Prezident, biz Sizin dünya səviyyəsində qəbul olunan qlobal ideyalarınızdan ilham alaraq bir çox beynəlxalq tribunalardan Azərbaycanın multikulturalizm və tolerantlıq modelini böyük qürurla təqdim edirik.

Zati-alinizin xeyir-duası və təşəbbüsü ilə Qafqaz Müsəlmanları İdarəsinin nəzdində yaradılmış Bakı Beynəlxalq Dinlər və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin məramı nadir multikulturalizm modelinin yaradılmasına və inkişafına dair qlobal ideyalarınızı təbliğ etməkdir. Məhz bu məramla, inşallah, bu ilin iyununda mərkəzimiz tərəfindən BMT-nin Cenevrə İnsan Haqları və Qlobal Dialoq Mərkəzinin, habelə Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin (KAİCİİD) həmtəşkilatçılığı, Azərbaycanın Avstriyadakı səfirliyinin, Avstriya dövlətinin ali dəstəyi və iştirakı ilə Vyanada 10-dan artıq beynəlxalq təşkilatın, 40-a yaxın ölkənin 300-ə yaxın din və dövlət nümayəndəsinin, elm və ictimaiyyət xadiminin iştirak edəcəyi beynəlxalq konfrans keçiriləcəkdir.

Dünyanın bir çox ölkələrində mənəvi dəyərlərə qarşı savaş açıldığı, islamofobiya, antisemitizm zəminində təqiblərin, terrorun, ekstremizm və radikallığın artdığı mürəkkəb zamanda müxtəlif qitə nümayəndələrinin, din və mədəniyyət təmsilçilərinin Azərbaycan Prezidentinin elan etdiyi multikulturalizm, İslam həmrəyliyi kimi qlobal əhəmiyyətli ideyalar ətrafında bir araya gəlməsi dövlətimizin uğuru və Sizin siyasətinizin təntənəsidir. Bu gün Azərbaycan iqtisadi, siyasi, mədəni sahələrdə liderliyi ilə yanaşı, dünya çapında dini-mənəvi dəyərlərin inkişafına böyük töhfələr verən multikulturalizm mərkəzi kimi tanınmaqdadır. Beynəlxalq ictimaiyyəti narahat edən problemlərin həlli yönündə dünyanın tanınmış dini liderləri, ictimai-siyasi xadimləri arasında səmərəli fikir mübadiləsi üçün Azərbaycanda dövlət tərəfindən hər cür şərait yaradılmışdır. Biz Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsi ilə əməkdaşlıq çərçivəsində Zati-alinizin irəli sürdüyü istiqamətlər yönündə yeni əməli layihələr üzərində işləyirik.

Fərəhləndirici haldır ki, ölkəmiz 2010-cu ildə dünya dini liderlərinin Bakıda keçirilmiş I sammitinin davamı olaraq sivilizasiyalararası dialoqun inkişafına daha bir töhfə verməyə hazırlaşır. Zati-alinizin Dünya Dini Liderlərinin II Bakı Sammitinin keçirilməsi barədə sərəncamı, heç şübhəsiz, tarixi bir qərar oldu. Müxtəlif dini konfessiyalar arasında əməkdaşlığın genişlənməsinə, qarşılıqlı etimad mühitinin yaradılması işinə önəmli töhfə olacaq bu beynəlxalq tədbirin dəyərini zaman və dünya ictimaiyyəti verəcəkdir.

Zati-aliləri, Azərbaycandakı din-dövlət münasibətlərinin yüksək səviyyəsinin təmini istiqamətində əməli addımlarınız, milli-mədəni irsin dirçəlişinə göstərdiyiniz maddi və mənəvi yardım ulu öndərin Bibiheybətdən başlatdığı ali mənəviyyat yoluna sadiqliyinizi hər zaman əməli səylərinizlə nümayiş etdirirsiniz.

Ali himayənizi heç vaxt əsirgəmədiyiniz, xalqımız üçün müqəddəs məkan sayılan Təzəpir məscidinin ətrafında aparılan abadlaşdırma işləri, genişləndirilən ərazidə salınan möhtəşəm park, məscidin ilkin tarixi layihəsinə uyğun yenidən qurulması barədə iradəniz - bütün bunlar milli-mənəvi dəyərlərimizə, tariximizə olan yüksək qayğının təzahürü, xalqımıza böyük hədiyyədir. Zati-alinizin mənəvi irsimizə sahib çıxaraq XX əsrdə Vladiqafqazda azərbaycanlı xeyriyyəçi Muxtarov tərəfindən inşa edilmiş məscidi tam bərpa etdirməniz isə bütün Qafqaz bölgəsi müsəlmanlarına, orada yaşayan soydaşlarımıza böyük hədiyyədir.

Möhtərəm cənab Prezident, Zati-alinizə xas olan yüksək mənəvi xüsusiyyətlərdən biri də odur ki, Siz təkcə islamın deyil, bütün dinlərin dini-mədəni irs nümunələrinə sahib çıxaraq ölkəmizdəki, həmçinin ölkə xaricindəki istər xristian, istər yəhudi məbədlərinə eyni dərəcədə diqqət və himayə göstərirsiniz.

Peyğəmbərimiz Məhəmməd Salavatullahın hədisində buyurulur ki, insanların ən xeyirlisi xalq üçün daha faydalı olanıdır. Zati-aliləri, Azərbaycanın iqtisadi qüdrətinin artırılması yönündə səyləriniz, beynəlxalq əhəmiyyətli enerji və nəqliyyat layihələrində fəal iştirakınız, sosial layihələrə verdiyiniz dəstək xalqımızın rifahına, dövlətimizin mənafelərinə xidmət edir. Siz və Mehriban xanım bütün vətəndaşlara həyatın ən çətin məqamlarında - təbii fəlakətlərdə, yanğınlarda, baş verən faciələrdə yüksək insani dəyər verir, onların problemlərinə diqqətlə yanaşırsınız. Dünyanın inkişaf etmiş dövlətlərinin miqrant böhranını aradan qaldıra bilmədiyi bir dövrdə Siz, möhtərəm cənab Prezident, Azərbaycanın qaçqın və məcburi köçkünləri üçün böyük qayıdış planları həyata keçirirsiniz. Cocuq Mərcanlıda Zati-alinizin inşa etdirdiyi məscidin, aparılan quruculuq işlərinin mənəvi önəmi xalqımız üçün sözlə ifadə olunmayacaq qədər böyükdür.



Ölkəmizdə həyatın bütün sahələrində gerçəkləşdirdiyiniz islahatlar əsl liderə xas əzəmət və siyasi qüdrət nümunəsidir.

Zati-aliləri, qədirbilən xalqımız Sizin siyasətinizin dövlətimizin uğurlu gələcəyinə xidmət etdiyindən əmindir. Lakin bizi istəməyən, gözü götürməyən bədxah qüvvələr Azərbaycanı bu qədər inkişaf etmiş gördükcə böhtan və iftiralarla xalq-dövlət birliyini pozmağa çalışırlar. Təəssüf ki, bədxah qüvvələr Azərbaycana qarşı mübarizələrində bəzən soydaşlarımızdan da istifadə etməyə çalışırlar. Şeyxülislam olaraq bildirmək istəyirəm ki, doğru yola qədəm qoysunlar, xalqımızın, dövlətimizin mənafelərini hər şeydən uca tutsunlar.

Bu yaxınlarda 10 milyonuncu vətəndaşımızın dünyaya gəlməsi gündən-günə geriləyən, maddi və mənəvi iflasa uğrayan, demoqrafik böhran yaşayan Ermənistan üçün ağır zərbədir. Ordumuzun artan qüdrəti, insanlarımızın Sizə sədaqəti bədxahları narahat edir, hətta dini zəmində qarşıdurma yaratmaq, məzhəb ayrı-seçkiliyi salmaq niyyətində olan daxili və xarici qüvvələr də yox deyildir. Lakin bu cür insanlar heç nəyə nail olmayacaqlar. Allahın köməyi və Azərbaycan xalqının dəstəyi həmişə Sizinlədir, möhtərəm cənab Prezident! Sizi əmin etmək istəyirəm ki, apardığınız siyasi xəttin qələbəsi yolunda hər zaman Sizin yanınızdayıq. Biz dindarlar Sizi dövlət rəhbəri kimi Məkkədə - müqəddəs məkanda seçmişik, xeyir-dualar vermişik və seçimimizə sadiqik. Allah-Təala hər zaman haqqın tərəfindədir.

Zati-aliləri, 70 illik yubileyim və Şeyxülislamlıq fəaliyyətimin 40 illiyi münasibətilə verdiyiniz ali qərar və sərəncamınızla cənabınıza xas olan böyüklük nümayiş etdirərək şəxsimə, Azərbaycan xalqı, dövlətçiliyimiz, müqəddəs dinimiz yolunda xidmətlərimə böyük dəyər verdiniz. Şeyxülislam olaraq 40 il ərzində dini mərkəzimizi ulu öndər Heydər Əliyevin xeyir-duası ilə onun əmanəti kimi saxlamağa, cənab Prezident, Sizin dəstəyinizlə dünyanın tanınmış dini təşkilatı səviyyəsinə qaldırmağa nail olmuşuq. Bu illər ərzində idarəmizə, şəxsimə olan hörmət və diqqətiniz, özəl münasibətiniz, fəaliyyətim barədə dəyərli fikirləriniz mənim üçün ən qiymətli hədiyyə olubdur. Zati-alinizin məni dost, qardaş adlandırmasını özüm üçün ən böyük mükafat hesab edirəm və bu yüksək etimadınızla fəxr edirəm. Hər zaman, hər yerdə qürurla deyirəm ki, harada dövlət və din birliyi varsa, orada dövlətin və xalqın siyasi, iqtisadi və mənəvi rifahı üçün təminat vardır, Heydər Əliyev yolunun davamı və Uca Yaradanımızın xeyir-duası vardır.

Möhtərəm cənab Prezident, bizim yeganə problemimiz, ağrılı yerimiz Dağlıq Qarabağ münaqişəsidir ki, onun da tezliklə Allahın köməyi və Ali Baş Komandanımızın əzmi, qətiyyəti sayəsində həllini tapacağına, torpaqlarımızın azad olunacağına əminik. Bu əziz gündə vətən uğrunda canlarından keçən şəhidlərimizə Allahdan rəhmət diləyirik. Allah-Təala Sizin rəhbərliyinizlə müzəffər ordumuzun əzəli torpaqlarımıza zəfər bayrağı sancmasını görməyi bizlərə nəsib etsin, inşallah! Bu müqəddəs və mübarək ramazan ayında Zati-alinizə və möhtərəm ailənizə ən gözəl arzularımızı yetiririk. Uca Allah hər zaman Sizi qorusun, yardımçınız olsun.

Müqəddəs ramazan ayında etdiyimiz dualar qəbul olar, inşallah. Bu niyyətlə hamıya - dəvət olunan mötəbər qonaqlara, dini konfessiyaların möhtərəm başçılarına, diplomatik nümayəndələrə bir daha "Xoş gəlmisiniz!" deyir, Allahdan hər birinizə xeyir-dualar diləyirəm.

Allah-Təala Azərbaycanı hifz eləsin! Amin!

❖ ❖ ❖

Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu **ALEKSANDR** çıxış edərək dedi:

- Hörmətli cənab Prezident.

Möhtərəm Şeyxülislam.

Hörmətli din xadimləri, xanımlar və cənablar.

Dini və milli ənənələrimizi yeniləmək və möhkəmləndirmək üçün ramazan ayı günlərində bir yerə toplaşmaq əlamətdar ənənəyə çevrilib. Bu görüş Azərbaycanda yaşayan xalqların öz tarixi və dini köklərinə bağlılığının parlaq təsdiqi, milli mentalitetin, dövlətlə din arasında konstruktiv qarşılıqlı münasibətlərin əyani təzahürüdür. Bu əlamətdar günlərdə bütün Azərbaycanda, bütün şəhərlərdə və kəndlərdə ailələrdə, dostların və tanışların əhatəsində belə iftar süfrələri açılır. Bizim iştirak etdiyimiz bu iftar süfrəsi də ölkədə sabitliyin, xalq-iqtidar birliyinin, dinlərarası dialoqun yüksək səviyyəsinin və multikulturalizmin Azərbaycan modelinin uğurunun parlaq təsdiqi, cəmiyyətin inkişafının ümummilli lider Heydər Əliyev tərəfindən müəyyən edilmiş siyasi kursunun dəyişməzliyinin sübutudur. Azərbaycanın bütün iqtisadi, siyasi, ictimai, elmi və mədəni həyatı bu məcrada inkişaf edir. Bu baxımdan Azərbaycanın Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi, bu il 15 illiyini qeyd etdiyimiz Heydər Əliyev Fondunun fəaliyyətini xüsusi qeyd etmək istəyirəm. Cənab Prezidentlə birlikdə din xadimlərinin, hökumət nümayəndələrinin, Milli Məclisin deputatlarının, elm və mədəniyyət xadimlərinin, respublikada akkreditə olunmuş diplomatik missiya rəhbərlərinin iştirak etdikləri bugünkü iftar mərasimi də dini həyatın vəziyyətinin yüksək səviyyədə olmasının göstəricisidir. Bu, tolerantlıq ruhunun və ölkəmizin rəhbərliyinin yürütdüyü multikulturalizm siyasətinin çox güclü təzahürüdür.

Möhtərəm cənab Prezident, icazə verin, Sizi əmin edək ki, Azərbaycanın din xadimləri Azərbaycan Respublikasının rəhbəri vəzifəsində Sizin fəaliyyətinizə dərin ehtiramla yanaşır, Sizin yürütdüyünüz siyasi kursu səmimi dəstəkləyir, Sizin cansağlığınız və ümumi evimiz olan Azərbaycanın tərəqqisi üçün ürəkdən dua edirlər.

İcazə verin, Sizə Rus Pravoslav Kilsəsinin başçısı, Moskvanın və bütün Rusiyanın patriarxı zati-müqəddəsləri Kirillin fevral ayında ölkəmizə son səfəri zamanı ona göstərdiyiniz mehriban və səmimi qəbula görə onun dərin təşəkkürünü çatdırım.

Hamınızı ramazan ayı münasibətilə təbrik edirəm.

❖ ❖ ❖

Azərbaycandakı Dağ Yəhudiləri Dini İcmasının rəhbəri **Melih YEVDAYEV** çıxış edərək dedi:

- Möhtərəm Prezident.

Şeyx həzrətləri.

Xanımlar və cənablar.

Bacılar və qardaşlar.

Bu müqəddəs ramazan günlərində ənənəvi iftar süfrəsi arxasında hamınızı yəhudi xalqı adından salamlayıram. Qoy Allah-Təala hamınızı öz qanadı altına alaraq şər qüvvələrdən hifz etsin. Allah-Təala tutduğunuz orucların və etdiyiniz duaların əvəzində sizə cansağlığı, xoşbəxtlik, səadət, bol ruzi-bərəkət bəxş etsin.

Müqəddəs ramazan ayını üç hissəyə bölmək olar: əvvəli rəhmət, ikincisi bağışlanma, sonu isə cənnətə doğru. Orucun mənası isə ucalmaq, yüksəlmək deməkdir. Adəm övladı öz iradəsi ilə nəfsinə qalib gəlirsə, həm öz gözündə, həm də Allah-Təalanın gözündə ucalaraq yüksəlir.

Bu gün Azərbaycanın sürətli inkişafını, uğurlu xarici və daxili siyasətini, o cümlədən dövlət və din münasibətlərinin səmərəli tənzimlənməsini şərtləndirən başlıca iki amil mövcuddur. Birincisi, ulu öndərin əsasını qoyduğu sağlam bünövrə, ikincisi isə ümummilli liderin layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyevin həmin sağlam bünövrə üzərində həyata keçirdiyi uğurlu strategiyadır.

Biz qədirbilən Azərbaycan xalqı ilə birgə bugünkü Azərbaycana, bu əmin-amanlığa, bugünkü gücə, qüdrətə görə ulu öndərə minnətdarlıq edib qəni-qəni rəhmət diləyirik:

*Həmişə xalqına baş əydiyindən,*
*Ucaldın zamanın keşməkeşində.*
*Özün düşüncədə bir ümman ikən,*
*Özünü əritdin ümman içində.*

Ulu öndər cəmiyyətimizdəki tolerantlıq və humanizm mühitinə görə xalqımızın yaddaşına borclu olduğumuzu dönə-dönə qeyd edirdi:

*Vətənə borcluyam mən,*
*Xalqıma borcluyam mən,*
*Bəlkə də bu dünyada,*
*Hamıya borcluyam mən.*

Möhtərəm Prezident, on beş ildən çoxdur ki, Siz bu siyasi xətti uğurla davam etdirirsiniz. Sizin böyük dərəcədə humanist, insanpərvər, vətənini və xalqını sevən, bunu bütün dünyaya bəyan edən Prezident olmağınızla fəxr edir və qürur duyuruq:

*Üzündə müqəddəs Vətən qüruru,*
*Alnında mərd kişi ləyaqəti var.*
*Şəffaf gözlərində günəşin nuru,*
*Bir də sadəliyin təravəti var.*

# dəyərlərinə sadiq qalan tolerant ölkə kimi tanınır

Möhtərəm Prezident, müəyyən müddət idi ki, Azərbaycanda Yəhudi Mədəniyyət Mərkəzinin tikilməsini arzulayırdıq. Yəhudi Mədəniyyət Mərkəzinin tikilməsi üçün ayırdığınız torpaq sahəsinə görə Sizə Azərbaycanda yaşayan bütün yəhudilər, həmçinin bütün dünya yəhudiləri adından dərin minnətdarlığımızı bildiririk. Bu vaxta qədər bütün dünyada analoqu olmayan bir hal kimi bizə bəxş etdiyiniz sinaqoqla yanaşı, tikiləcək bu mədəniyyət mərkəzi də dünyada analoqu olmayan bir hal kimi tarixə düşəcəkdir:

*Arzu zirvə başındadır,*
*Onun min bir pilləsi var.*
*Hər arzunun neçə-neçə,*
*Böyük, kiçik çilləsi var.*

Möhtərəm Prezident, Allah-Təala bütün arzularınızı böyük və kiçik çillələrdən keçirərək çin etsin. Çünki Sizin arzularınız bizim arzularımızdır.

Möhtərəm Prezident, Azərbaycanda yaşayan yəhudilər həmişə olduğu kimi, respublikanın ictimai-siyasi həyatında fəal iştirak edirlər. Respublikamız mötəbər tədbirlərə evsahibliyi edir. Həmin tədbirlərə dünyanın hər yerindən gələn çoxsaylı qonaqlar bizim həyat tərzimiz və fəaliyyətimizlə tanış olur, öz dövlətlərinə qayıdandan sonra Azərbaycanın bugünkü həqiqətlərindən danışırlar. Lakin bu, həmişə belə olmur. Bizim inamlı qələbələrimizdən qıcıqlanan bəzi üzdəniraq qonaqlar bugünkü sülh və əmin-amanlıq şəraitində yaşamağımızdan yazmaq əvəzinə, ikili standartlara əl atırlar, doğru sözümüzü demirlər və bilmək istəmirlər ki:

*Doğru söz insanlığın görən gözüdür,*
*Doğru söz ədalətin, həqiqətin özüdür.*
*Müqəddəs ocağın közüdür düz söz,*
*Dahilər dilinin gücüdür düz söz.*

Biz bu yaxınlarda Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunovun 50 illiyini Şəhidlər xiyabanında və sonra Beynəlxalq Muğam Mərkəzində yüksək səviyyədə keçirdik. Bu tədbirin keçirilməsində, inanın Allaha, bütün respublika bizə kömək edirdi. Prezident Administrasiyası, Nazirlər Kabineti, şeyx həzrətləri, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi və aidiyyəti nazirliklər - Müdafiə, Mədəniyyət, Gənclər və İdman nazirlikləri, bütün icra hakimiyyətləri bizə dəstək oldular.

Möhtərəm Prezident, əlbəttə ki, bütün bunlar Azərbaycanda mümkündür:

*Bir süfrənin başında,*
*Nemətimiz bərabər.*
*Hüququmuz bərabər,*
*Hörmətimiz bərabər.*
*Bir məclisdə sözümüz,*
*söhbətimiz bərabər.*
*Ana yurda borcumuz,*
*xidmətimiz bərabər.*
*Mübarəkdir bir eşqin,*
*Bir amalın bayramı.*
*Etibarın, vəfanın,*
*Dəyanətin bayramı.*

Bu əziz günlərdə dünyasını dəyişənlərimizə və cəmi şəhidlərimizə Allah-Təala qəni-qəni rəhmət etsin. Qoy onların qəbirləri nurla dolsun. Hər bir qəhrəman vətənin şöhrəti və yaraşığıdır. Məzarda olsalar belə, həmişə həyatdadırlar. Əlbəttə ki, atalarımız, analarımız dünyalarını dəyişiblər:

*Yenə gəldim ziyarətə,*
*Öpdüm mərmər daşı, ata.*
*Sifətinə ləkə saldı,*
*Gözlərimin yaşı, ata.*
*Məndə oğul dəyanəti,*
*Səndə qəbir sükunəti,*
*Baxışların məğrur, qəti,*
*Mərd kişi idin, kişi ata.*
*Qartal vüqarlısan, dağ əzəmətli,*
*Ata qeyrətlisən, bacı şəfqətli.*
*Ay mənim qeydimə qalanım ana,*
*Həkimim, təbibim, loğmanım ana.*
*Torpaq da anasız qalmasın deyə,*
*Torpağın qoynuna köçür analar.*

Ona görə də Allah-Təala onlara qəni-qəni rəhmət etsin. Allah-Təala onların qəbirlərini nurla doldursun.

*Vətəni sevirəm deyən çox olar,*
*Deməyə nə var ki, dil yorulmasa.*
*Vətən də mənim tək ölər, yox olar,*
*Vətənin yolunda ölən olmasa.*

Ona görə də bu gün biz cəmi şəhidlərimizi yad edirik, onlar həmişə bizim qəlbimizdə, bizim ürəyimizdədirlər.

*Bir arzumuz da var ki, deyir:*
*Arzumu görmüşəm mən arzularda,*
*Arzumu yazmışam ayna sularda.*
*Dərdi tək çəkirəm çətində, darda,*
*Sevinci hamı ilə bölən olmuşam.*

Bizim ən hündür bayrağımız Qarabağ göylərində dalğalananda mən bütün sevincimi, bütün xalqın sevincini Sizinlə bölüşəcəyəm.

Möhtərəm Şeyx həzrətləri:

*İlham qonağındır ellər var olsun,*
*İlhama hər zaman Allah yar olsun,*
*Evində həmişə toy-bayram olsun.*
*Qoy bilsinlər qızıldır, incidir, ləldir İlhamın.*

Sağ olun.

❖ ❖ ❖

Katolik Kilsəsinin Azərbaycandakı yepiskopu **Vladimir FEKETE** çıxış edərək dedi:

- Zati aliləri, cənab Prezident İlham Əliyev.

Möhtərəm Şeyxülislam Allahşükür Paşazadə.

Hörmətli xanımlar və cənablar.

Şadam ki, ramazan ayı ilə əlaqədar bu il də biz hörmətli Şeyxin evində bir yerə toplaşmışıq. İcazə verin, mən, ilk növbədə, ev sahibi kimi ona burada artıq dəfələrlə hiss etdiyimiz qonaqpərvərliyə görə dərin minnətdarlığımı bildirim. Hörmətli Şeyxülislam, mən Azərbaycan katolikləri adından sizə xüsusilə bu il - sizin əlamətdar 70 illik yubileyiniz münasibətilə ən xoş arzularımı çatdırmaq istəyirəm. Ulu Tanrı sizi, ailənizi qorusun və sizə kömək etsin ki, həyatınız, zəhmətiniz gələcəkdə də dini dözümlülük ideyalarının möhkəmlənməsinə və bu gözəl ölkənin bütün sakinlərinin əməkdaşlığına kömək etsin.

Hörmətli cənab Prezident, mən Azərbaycan katolikləri adından bu dövlətin başçısı kimi Sizə təşəkkürümü bildirmək istəyirəm. Burada və digər yerlərdə dəfələrlə səsləndiyi kimi, Siz bütün bəşəriyyətə çox böyük töhfə verən tolerantlıq və multikulturalizm proseslərinin qarantısınız. Sizin rəhbərliyinizlə həyata keçirilən bu siyasət həm ölkəmizdə uğurla inkişaf edir, həm də bütün dünyada müsbət əks-səda doğurur.

Bu ilin fevralında Papa Fransisk Əbu-Dabiyə səfərə gəlmişdi. Bu səfərin ən mühüm hadisələrindən biri bəşəri qardaşlıq haqqında sənədin imzalanması oldu. Həmin sənəddə Papa və "Əl-Əhzar"ın ali imamı əl-Tayib birlikdə bütün insanları qardaş olmağa, bir-birinə hörmət etməyə çağırdıqlarını bəyan edirlər. Sənəddə deyilir: "Bizim zəmanəmizdə bəziləri dinə münaqişə mənbəyi kimi baxır. Biz birlikdə islamla xristianlıq arasında görüşün mümkünlüyünün daha bir aydın və qəti nümunəsini göstərdik. Göstərdik ki, bütün mədəni müxtəlifliyə və ənənələrin fərqliliyinə baxmayaraq, xristian dünyası ilə islam dünyası arasında hörmət və dialoq mümkündür. Həm xristian dünyası, həm də islam dünyası ümumi dəyərləri - həyatı, ailəni, dini hissləri, böyüklərə ehtiramı, gənclərin tərbiyəsini və s. dəyərləndirir və qoruyur".

Azərbaycanda olduğum müddətdə mən dəfələrlə Papanın həmin sənəddə ifadə olunan arzularının burada təcrübədə, gündəlik həyatda reallaşdığını müşahidə etmişəm. Mən azərbaycanlıların qonaqpərvərliyinə və səmimiliyinə, eləcə də onların tarixi səhvlərə və ədalətsizliyə qarşı qəhrəmancasına dözümlü və səbirli olmasına heyranam. Mən əminəm ki, bunların hamısı bütün bəşəriyyət üçün dəyərli töhfə olacaq. Mən indi də, qarşıdakı illərdə də Sizin rəhbərliyinizlə Azərbaycanın insanlar arasında sülhün, xoş münasibətlərin və əməkdaşlığın adası olaraq qalması, bütün şərəfli zəhmətkeş insanlar üçün kifayət qədər məkanın olduğu, öz vətəndaşlarının və burada yaşayanların hamısının azadlığını və ləyaqətini qoruyan ölkə kimi qalması üçün dua etmək və işləmək istəyirəm. Bizi yaradan qüdrətli Tanrı hamımıza, - öz düşüncəsinə görə bizi yerləşdirdiyi yerlərdə hər birimizə, - gələcək nəsillər üçün daha gözəl və fərəhli dünya qurmaqda kömək etsin.

Zati-aliləri, hörmətli Şeyxülislam, icazə verin, bir daha sizə ürəkdən möhkəm cansağlığı, Tanrının köməyini və bütün müsəlman qardaşlarımıza firavanlıq, inkişaf və tərəqqi arzulayım. Təşəkkür edirəm.

❖ ❖ ❖

Dövlət başçısı mərasimdə nitq söylədi.



# Prezident İlham Əliyevin nitqi

- Hörmətli Şeyx həzrətləri.

Hörmətli din xadimləri.

Xanımlar və cənablar.

Hər il olduğu kimi, mübarək ramazan ayında Şeyx həzrətlərinin iftar süfrəsində görüşürük. Bu, gözəl ənənədir. Bu ənənə yaşayır və yaşayacaq. Bu, dövlət-din münasibətlərinin bariz nümunəsidir. Dövlət-din münasibətləri hər bir ölkə üçün xüsusi əhəmiyyətə malikdir və Azərbaycanda bu münasibətlər nümunəvi xarakter daşıyır.

Bu münasibətlərin təməlində ulu öndər Heydər Əliyev və Şeyx həzrətləri dayanırlar. Onların şəxsi dostluğu, bir-birilərinə olan hörməti dövlət-din münasibətlərinin inkişafına çox böyük təsir göstərmişdir. Mən onun şahidiyəm ki, Şeyx həzrətləri və ulu öndər Heydər Əliyev bir-birinə çox yaxın insanlar olmuşlar və onların xalq, vətən qarşısında gördükləri işlər bugünkü Azərbaycanın uğurlu inkişafına şərait yaratmışdır.

1993-cü ilə qədər dövlət-din münasibətlərində müəyyən boşluqlar var idi. 1993-cü ildən sonra bu sahədə də bütün istiqamətlər üzrə işlər ən yüksək səviyyədə tənzimlənir. Mayın 10-da, ulu öndərin anadan olmasının 96-cı ildönümü günündə onun xalq, dövlət qarşısında gördüyü işlər haqqında danışdıq. Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləri var. Bugünkü müstəqil Azərbaycan onun əsəridir. Dövlətçiliyin əsaslarının qurulması, Azərbaycanın strateji inkişaf istiqamətlərinin müəyyən edilməsi məhz Heydər Əliyevin müdrikliyi və uzaqgörənliyi sayəsində mümkün olmuşdur.

Hörmətli Şeyx həzrətləri xalq və dövlət qarşısında böyük xidmətlər göstərir. Şeyx həzrətləri həm Azərbaycanda, həm Qafqazda, həm də dünyada böyük nüfuza malik görkəmli din xadimidir və Azərbaycanı dünyada öz dəyərlərinə sadiq, eyni zamanda, müasir, tolerant ölkə kimi təqdim edir. Onun çoxşaxəli beynəlxalq fəaliyyəti Azərbaycanı dünyaya tanıtdırır, Azərbaycan reallıqlarını dünya ictimaiyyətinə təqdim edir və Şeyx həzrətlərinin uğurlu fəaliyyəti ölkəmizi gücləndirir.

Ölkəmizdə milli həmrəylik, vətəndaş həmrəyliyi var. Konstitusiyaya görə din dövlətdən ayrı olsa da, əslində din və dövlət bir-birinin yanındadır. Bizim gücümüz birliyimizdədir. Bu gün Azərbaycanın uğurlu inkişafı dövlət-din münasibətlərinin uğurlu inkişafından böyük dərəcədə asılıdır.

Dünyada vəziyyət gərginləşir. Həm bölgəmizdə, həm dünyada yeni toqquşmalar, yeni münaqişə ocaqları yaranır, yeni risklər, təhdidlər meydana çıxır. Dünyanın gələcəyi ilə bağlı, sabitliyin gələcəyi ilə bağlı müxtəlif fikirlər, fərziyyələr irəli sürülür. Bizim əsas vəzifəmiz Azərbaycanda sabitliyi qorumaq, Azərbaycan xalqının rifah halını yaxşılaşdırmaq və ölkəmizi mümkün olan risklərdən qorumaqdan ibarətdir. Son illər ərzində bu istiqamətdə böyük işlər görülüb. Azərbaycan inkişaf yolu ilə gedir. İnkişaf dinamikamız çox müsbətdir. Əminəm ki, gələcək illərdə aparılan dərin islahatlar sayəsində ölkəmizin uzunmüddətli, dayanıqlı inkişafı təmin ediləcəkdir.

Biz dərin milli-mənəvi təməl üzərində müasir dövlət qurmuşuq. İslam dəyərləri milli-mənəvi dəyərlərimizin ayrılmaz hissəsidir. Biz öz dinimizə bağlıyıq. Biz dünyada islam mədəniyyətini təbliğ edirik. Dünyada çoxsaylı konfranslar, sərgilər, təqdimatlar keçirilir, Azərbaycan həqiqətləri, islam mədəniyyətinin həqiqətləri dünya ictimaiyyətinə təqdim edilir. Biz islamı olduğu kimi, sülh, mərhəmət dini kimi dünyaya təqdim edirik və bu fəaliyyəti bundan sonra da davam etdirəcəyik.

Müsəlman ölkələri ilə bizim ənənəvi dostluq-qardaşlıq əlaqələrimiz vardır. Bu, xarici siyasətimizdə prioritet istiqamətlərdən biridir. Azərbaycan bütün müsəlman ölkələri ilə sıx əlaqələr qura bilmişdir və beynəlxalq müstəvidə biz daim bir-birimizi dəstəkləyirik. Eyni zamanda, ikitərəfli formatda çox fəal əməkdaşlıq edirik. Bir neçə gün bundan əvvəl müsəlman ölkələrinin səfirləri ilə görüş əsnasında bu məsələlərlə bağlı fikir mübadiləsi apardıq.

Azərbaycan, eyni zamanda, İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüdür və bu təşkilat çərçivəsində islam həmrəyliyinin möhkəmlənməsinə öz dəyərli töhfəsini verir. Ölkəmizdə İslam Əməkdaşlıq Təşkilatının xətti ilə bir çox tədbirlər keçirilir. İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanda islam dəyərlərinin qorunması işində apardığımız siyasətə çox yüksək qiymət verir. Biz bundan sonra da təşkilat çərçivəsində islam həmrəyliyinin möhkəmlənməsi işində öz səylərimizi davam etdirəcəyik. Onu da bildirməliyəm ki, 2016-cı ildə İslam Əməkdaşlıq Təşkilatı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi üzrə kontakt qrupu yaratmışdır və təşkilat bu münaqişə ilə bağlı bizim haqq işimizi daim dəstəkləyir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin bir yolu var - Azərbaycanın dünya birliyi tərəfindən tanınmış ərazi bütövlüyü bərpa edilməlidir. Dağlıq Qarabağ bizim tarixi, əzəli torpağımızdır. Biz bu həqiqətləri dünyaya çatdırırıq. Əfsuslar olsun ki, münaqişə başlanan zaman münaqişə ilə bağlı dünyada kifayət qədər məlumat yox idi. 1990-cı illərin əvvəllərində torpaqlarımız işğal altına düşmüşdür. Ölkəmizdə o vaxt yaşanan böhran, hərc-mərclik, xaos Ermənistana imkan verdi ki, bizim tarixi torpaqlarımızı zəbt etsin. O vaxt biz beynəlxalq təcriddə idik, öz səsimizi dünya ictimaiyyətinə çatdıra bilmirdik. Beləliklə, dünyada münaqişə ilə bağlı böyük dərəcədə təhrif edilmiş rəy formalaşdırılmışdı. Bizim müntəzəm səylərimiz nəticəsində artıq bütün dünya bilir ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir, tarixi torpağımızdır. Münaqişəyə dair çoxsaylı kitabların çap edilməsi, təqdimatların, konfransların keçirilməsi dünya ictimaiyyətinə münaqişə ilə bağlı həqiqətləri çatdırır.

Hər kəs görür ki, münaqişə ilə bağlı ikili standartlar mövcuddur. Necə ola bilər, dünyanın ali orqanı olan BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul edir, bu qətnamələrdə açıq-aydın deyilir ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan çıxarılmalıdır və bu qətnamələr icra olunmur. Ona görə hesab edirəm ki, dünyada mövcud olan ikili standartlar ən böyük problemlərdən biridir. Münaqişənin həlli üçün biz səylərimizi davam etdirəcəyik. Biz iqtisadi gücümüzü artırırıq, siyasi çəkimiz artır, hərbi baxımdan Azərbaycan bu gün güclü ölkələr sırasındadır. Döyüş meydanında üstünlüyümüzü təmin etmişik. Vaxtilə işğal altına düşmüş torpaqların bir hissəsini azad etmişik. O torpaqlarda bu gün Azərbaycan bayrağı dalğalanır. İşğaldan azad edilmiş torpaqlarda Şuşa məscidinin bənzəri olan məscid tikilmişdir, qəsəbə salınmışdır, oraya həyat qayıtmışdır. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı bu işğalla heç vaxt barışmayacaq. Bu gün dirçələn və inkişaf edən Cocuq Mərcanlı kəndi Azərbaycan xalqının əyilməz ruhunu təcəssüm etdirir. Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaq. Bir daha demək istəyirəm ki, bu münaqişə yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır.

Biz tarixi, dini abidələrimizi qoruyuruq və burada da dövlət və din bir yerdədir. Son illərdə yüzlərlə məscid tikilmiş və ya təmir edilmişdir. Onların arasında tarixi məscidlərimiz xüsusi yer tutur. Şeyx həzrətləri qeyd etdi, Təzəpir məscidinin ətrafında salınan möhtəşəm park həm şəhərə yeni nəfəs verəcək, yəni, 20 hektar ərazidə salınan yaşıllıqlar bu zonada iqlimin yaxşılaşmasına xidmət göstərəcək, insanların rahatlığı üçün imkanlar yaradacaq, eyni zamanda, Təzəpir məscidinin əzəmətli görkəmi artıq bütün vətəndaşlara açıq olacaq. Çünki vaxtilə Təzəpir məscidinin ətrafında tikilmiş binalar imkan vermirdi ki, biz onu uzaq məsafədən seyr edək. Digər məscidlərimizin əsaslı şəkildə bərpası bizim niyyətimizi, siyasətimizi göstərir. Bibiheybət, Əjdərbəy, Şamaxı Cümə məscidlərinin, "İmamzadə" tarixi-dini kompleksinin əsaslı şəkildə təmir edilməsi dövlət-din münasibətlərinin təzahürüdür. Heydər məscidinin tikintisi tarixi hadisədir.

Bildiyiniz kimi, keçən il prezident seçkilərindən sonra iştirak etdiyim birinci tədbir Hacı Cavad məscidinin yeni binasının açılışı olmuşdur. Bu da təsadüfi deyil. Mən seçkilərdən sonra istənilən yerə gedə bilərdim. Məhz Hacı Cavad məscidinin yeni binasının açılışını birinci növbədə qeyd etməyimiz dövlət-din münasibətlərimizə, islam dininə göstərdiyimiz hörmətdir.

Ölkəmizdə dinlərarası münasibətlər ən yüksək səviyyədə tənzimlənir. Bu, artıq reallıqdır. Bütün dünya bu reallıqları bilir və qəbul edir. Bu gün Azərbaycan dünya miqyasında dinlərarası dialoqun aparılması üçün bir mərkəzə çevrilib. Təsadüfi deyil ki, çoxsaylı beynəlxalq tədbirlər məhz bizim təşəbbüsümüzlə ölkəmizdə keçirilir. Əgər biz bu təşəbbüsü göstərməsəydik, bu tədbirlər də keçirilməzdi.

Hörmətli Şeyx həzrətlərinin dediyi kimi, bu il Dünya Dini Liderlərinin II Zirvə Görüşü keçiriləcəkdir. Bu məsələ ilə bağlı qərar qəbul edildi. Şeyx həzrətlərinin yubileyi və fəaliyyətinin 40 illiyi dövlət səviyyəsində təntənəli şəkildə qeyd ediləcəkdir. Əminəm ki, Azərbaycan müasir, öz dini, milli köklərinə bağlı olan ölkə, eyni zamanda, tolerant və multikultural dəyərləri təbliğ edən dövlət kimi öz reallıqlarını dünyaya bir daha təqdim edəcək.

Azərbaycanda keçirilən çoxsaylı beynəlxalq tədbirlər həm ölkəmiz, həm daxildə gedən proseslər, həm də dünya üçün böyük məna daşıyır. Çünki Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkədir. Bu, bizim böyük sərvətimizdir. Azərbaycanda bütün xalqların, bütün dinlərin nümayəndələri mehribanlıq, əmin-amanlıq şəraitində yaşayır. Biz bir ailə kimi yaşayırıq və bizim gücümüz birliyimizdədir. Bu tədbirlərin dünya üçün də böyük əhəmiyyəti var. Çünki bu gün dünyada dinlərarası münasibətlərlə bağlı fərqli fikirlər var, yəni, birmənalı yanaşma yoxdur. Bəzi hallarda çox təhlükəli fikirlər səslənir, çox böyük fəsadlara gətirib çıxara biləcək addımlar atılır. Ona görə bizim təşəbbüslərimiz dünya üçün böyük əhəmiyyət daşıyır. Sonuncu böyük tədbir Mədəniyyətlərarası Dialoq Forumu idi. Bu forum çərçivəsində çox önəmli məsələlər müzakirə edilmişdir və Azərbaycanın bu sahədəki müsbət rolu bir daha qeyd olunmuşdur. Biz bu sahədə öz səylərimizi davam etdirəcəyik. Bir daha demək istəyirəm ki, bu, bizim üçün lazımdır və bu, dünya üçün lazımdır. Çünki biz istəyirik ki, dünyada proseslər müsbət məcrada getsin, dini, milli zəmində qarşıdurma, anlaşılmazlıq olmasın, sülh olsun, bərabərlik olsun, ədalət olsun. Müqəddəs islam dinimiz bunu tələb edir və biz dövlət olaraq bu istiqamətdə öz səylərimizi davam etdirəcəyik. Ölkəmizin uğurlu, dayanıqlı inkişafı təmin olunacaq, ölkə qarşısında duran vəzifələr icra edilir və ediləcəkdir, mövcud problemlərin həlli üçün çox aydın baxışlar, konkret proqramlar var və onlar icra edilir. Bu gün Azərbaycan reallıqları belədir ki, ölkəmiz inamla, nikbinliklə irəliyə gedir, nikbinliklə yaşayır. Ölkə qarşısında duran bütün problemlərin həlli üçün bizdə həm güclü siyasi iradə, həm də cəmiyyət tərəfindən böyük dəstək var.

Hörmətli mərasim iştirakçıları, mən hörmətli Şeyx həzrətlərinə, digər din xadimlərinə mənim haqqımda, ünvanıma deyilən bütün xoş sözlərə görə bir daha minnətdarlığımı bildirmək istəyirəm. Bütün dünya müsəlmanlarını ramazan ayı münasibətilə təbrik etmək istəyirəm. Bütün dünya müsəlmanlarına sülh, əmin-amanlıq, rifah arzulayıram! Sağ olun.

❖ ❖ ❖

Sonra iftar süfrəsi açıldı.

## İordaniyanın Kralı Əlahəzrət II Abdullah ibn Al Hüseynə

Əlahəzrət!
Əziz Qardaşım!
İordaniya Haşimilər Krallığının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.
Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş İordaniya xalqına daim sülh və rifah arzulayıram.
*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 may 2019-cu il*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.
Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizə səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq hissi duyuram.
Sizə xoşbəxtlik, ölkənizin xalqına isə rifah arzulayıram.

***NARUHİTO,***
***Yaponiyanın İmperatoru***

---

Hörmətli cənab Prezident!
Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə ən səmimi təbriklərimi, ölkənizin və xalqınızın rifahı üçün ürəkdən gələn arzularımı qəbul etməyinizi xahiş edirəm.
Bu xoş fürsətdən istifadə edərək Bolqarıstan Respublikasının Azərbaycan Respublikası ilə strateji əməkdaşlıq əlaqələrinin davamlı olmasına marağını bir daha təsdiq etmək istərdim.
Əminəm ki, dövlətlərimiz arasındakı əməkdaşlığın inkişafı yüksələn xətlə davam edəcəkdir. Çünki bu münasibətlər sabit zəminə - xalqlarımız arasındakı dostluq əlaqələrinə əsaslanır.
Hörmətli cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Rumen RADEV,***
***Bolqarıstan Respublikasının Prezidenti***

---

Hörmətli İlham Heydər oğlu!
Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Sizə və Sizin şəxsinizdə bütün qardaş Azərbaycan xalqına Türkmənistan xalqı və hökuməti adından, şəxsən öz adımdan səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram.
Biz Türkmənistanda Azərbaycan Respublikası ilə mehriban qonşuluq, hörmət və qarşılıqlı dəstək prinsiplərinə əsaslanan münasibətləri yüksək qiymətləndiririk. Qəti əminəm ki, Türkmənistan-Azərbaycan münasibətləri qardaş ölkələrimizin və xalqlarımızın rifahı naminə bundan sonra da qarşılıqlı əməkdaşlıq ruhunda durmadan inkişaf edəcək və möhkəmlənəcək.
Hörmətli İlham Heydər oğlu, bu xoş fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı və səadət, qardaş Azərbaycan xalqına isə sülh, firavanlıq və tərəqqi diləyirəm.
*Dərin hörmətlə,*

***Qurbanqulu BERDİMƏHƏMMƏDOV,***
***Türkmənistanın Prezidenti***

---

Zati-aliləri!
Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının ildönümü - Respublika Günü münasibətilə San-Marino xalqı adından və şəxsən öz adımızdan zati-alinizə və dost Azərbaycan xalqına ən gözəl arzularımızı və səmimi təbriklərimizi çatdırırıq.
Zati-aliləri, Sizə ən yüksək ehtiramımızı bildirir, səmimi-qəlbdən xoşbəxtlik arzulayır, Azərbaycan xalqına isə rifah, inkişaf və firavanlıq diləyirik.
*Dərin hörmətlə,*

***Nikola SELVA və Mişel MURATORİ,***
***San-Marino Respublikasının Kapitan-Regentləri***

---

Möhtərəm İlham Heydər oğlu!
İcazə verin, ilk növbədə, Sizə dərin ehtiramımı bildirim və ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Sizi ürəkdən təbrik edim.
Bu əlamətdar gündə Sizə və Azərbaycan Respublikasının bütün vətəndaşlarına möhkəm cansağlığı, xoşbəxtlik, firavanlıq və tərəqqi diləyirəm.
Uzun illərdir ki, bizim regionlar arasında qarşılıqlı faydalı dostluq münasibətləri inkişaf edir və möhkəmlənir. Heydər Əliyev Fondunun və Bakının Nərimanov rayonunun fəal iştirakı ilə Həştərxan vilayətində bizim region üçün əhəmiyyətli olan bir sıra investisiya layihələri həyata keçirilib. Həştərxan şəhərində Azərbaycan İşgüzar Mərkəzinin, iri logistik habın yaradılması Azərbaycan ilə Rusiyanın Həştərxan vilayəti arasında iqtisadi-ticari əlaqələrin spektrini əhəmiyyətli dərəcədə genişləndirir.
Bakı ilə Həştərxan arasında müntəzəm aviareyslərin bərpa edilməsi səmərəli qarşılıqlı fəaliyyətin növbəti parlaq nümunəsidir. Bu aviareyslər işgüzar fəallığı daha da stimullaşdıracaq, turizm əlaqələrini inkişaf etdirəcək və humanitar əməkdaşlığı genişləndirəcək. Bu layihə Sizin şəxsi dəstəyiniz sayəsində mümkün olub. Buna görə Sizə bütün həştərxanlılar adından dərin minnətdarlığımızı bildirirəm.
Səmimi-qəlbdən ümid edirəm ki, Həştərxan vilayəti ilə Azərbaycan arasında əməkdaşlıq xalqlarımızın rifahı naminə bundan sonra da səmərəli inkişaf edəcək və möhkəmlənəcək.
*Hörmətlə,*

***Sergey MOROZOV,***
***Rusiyanın Həştərxan vilayəti qubernatorunun vəzifəsini icra edən***

---

Hörmətli cənab Prezident!
Rusiyada yaşayan çoxminlik Azərbaycan diasporu adından və şəxsən öz adımdan Sizə dərin ehtiramımı bildirir və milli bayramımız - Respublika Günü münasibətilə Sizi ürəkdən təbrik edirəm.
Biz Sizin müdrik rəhbərliyinizlə Azərbaycanın sosial-siyasi həyatında aparılan əsaslı islahatları, ölkənin iqtisadi potensialının və nüfuzunun artırılması işində qazanılan uğurları məmnunluqla izləyirik.
Əminəm ki, Sizin səyləriniz sayəsində Rusiya ilə Azərbaycan arasında strateji tərəfdaşlıq, ənənəvi dostluq əlaqələri xalqlarımızın rifahı naminə bundan sonra da inkişaf edəcək.
Bu xoş fürsətdən istifadə edib Sizə möhkəm cansağlığı və xoşbəxtlik, Azərbaycan xalqına isə sülh, firavanlıq və tərəqqi diləyirəm.
*Sizə səmimi və dərin hörmətlə,*

***Fazil QURBANOV,***
***Rusiyanın Azərbaycan diasporunun lideri, akademik***

## Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycanın dünyaya nümunə olan hazırkı mədəni müxtəliflik və yüksək tolerantlıq mühiti əsrlərdən bəri burada ayrı-ayrı xalqların və konfessiyaların nümayəndələrinin qarşılıqlı hörmət və əmin-amanlıq şəraitində dinc yanaşı yaşamalarının nəticəsidir. Cəmiyyətdə qarşılıqlı mənəvi zənginləşmə üçün davamlı zəmin yaratmış bu etnik rəngarəngliyin qorunub saxlanmasının müstəqil dövlətçiliyin əsaslarının daha da möhkəmləndirilməsi baxımından əhəmiyyətini nəzərə alaraq və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə mövcud dini konfessiyaların fəaliyyətinin dəstəklənməsini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərmək üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Qafqaz Müsəlmanları İdarəsinə 2,0 (iki) milyon manat, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumuna 350,0 (üç yüz əlli) min manat, Bakı şəhəri Dağ yəhudiləri dini icmasına 350,0 (üç yüz əlli) min manat, Avropa yəhudilərinin Bakı dini icmasına 150,0 (yüz əlli) min manat, Azərbaycan Respublikasında Katolik Kilsəsinin Apostol Prefekturası dini qurumuna 150,0 (yüz əlli) min manat və Azərbaycan Respublikasının Alban-Udi xristian dini icmasına 150,0 (yüz əlli) min manat, habelə digər qeyri-islam dini icmalarına maddi dəstək göstərilməsi üçün Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində olan Mənəvi Dəyərlərin Təbliği Fonduna 100,0 (yüz) min manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 may 2019-cu il*

## Konstitusiya Məhkəməsi Plenumunun növbəti iclası olub

Fərhad Abdullayevin sədrliyi ilə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun xüsusi konstitusiya icraatı qaydasında növbəti açıq məhkəmə iclası keçirilib.

Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Bakı Apelyasiya Məhkəməsinin müraciəti əsasında Azərbaycan Respublikası Mülki Məcəlləsinin 2.5-ci maddəsinin Azərbaycan Respublikasının inzibati prosessual qanunvericiliyi baxımından şərh edilməsinə dair konstitusiya işinə baxılıb.

Konstitusiya Məhkəməsinin Plenumu iş üzrə hakim R.İsmayılovun məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin çıxışlarını və ekspertin rəyini dinləyib müzakirə edərək qərar qəbul edib.

Qərarda deyilir ki, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 2.5-ci maddəsinin tələbləri baxımından, qanunvericilikdə ayrı qayda nəzərdə tutulmadığı halda, məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi ilə bağlı yaranan münasibətlərə həmin məcəllənin müddəaları tətbiq edilmir.

Qərar dərc edildiyi gündən qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz.

# Dövlət Sərhəd Xidmətinin inzibati binasında “Siyasi repressiya qurbanları muzeyi” açılıb






Mayın 24-də Dövlət Sərhəd Xidmətinin (DSX) inzibati binasında “Siyasi repressiya qurbanları muzeyi”nin açılışına həsr olunmuş tədbir keçirilib.

DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə Azərbaycan Respublikası Prezidentinin hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov, mədəniyyət naziri Əbülfəs Qarayev, Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-polkovnik Mədət Quliyev, Ali Məhkəmənin sədri Ramiz Rzayev, Baş Prokurorun birinci müavini Rüstəm Usubov, Hərbi Prokuror, general-leytenant Xanlar Vəliyev, İnsan Hüquqları üzrə Müvəkkil Elmira Süleymanova, Yazıçılar Birliyinin sədri Anar, xalq yazıçısı Çingiz Abdullayev, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Tarix İnstitutunun direktoru Yaqub Mahmudov, Azərbaycan Milli Arxiv İdarəsinin rəisi Əsgər Rəsulov, Milli Məclisin deputatları, Aydın Mirzəzadə, Əflatun Amaşov, Aqil Abbas və digər şəxslər iştirak ediblər.

Tədbirdə Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev, mədəniyyət naziri Əbülfəs Qarayev, Yazıçılar Birliyinin sədri Anar, Tarix İnstitutunun direktoru Yaqub Mahmudov və general-polkovnik Mədət Quliyev çıxış ediblər.

Çıxışlarda muzeyin ekspozisiyasının Azərbaycan tarixinin ən acı səhifələrini əyani surətdə əks etdirməsi, 1920-1950-ci illərdə sovet dövlətinin apardığı siyasət nəticəsində on minlərlə ictimai və dövlət xadiminin, elm, mədəniyyət, incəsənət nümayəndələrinin, sıravi vətəndaşların repressiyaya məruz qalması xüsusi qeyd edilib. 1950-ci illərin ikinci yarısında siyasi repressiya qurbanlarına bəraət verilməsinə baxmayaraq, bolşevizmin hökmranlıq etdiyi illərdə siyasi repressiyalar haqqında məlumatların yayılmasına qadağa qoyulması, yalnız müstəqillik illərində - 1996-cı il martın 15-də ulu öndər Heydər Əliyevin imzaladığı “Siyasi repressiya qurbanlarının reabilitasiyası haqqında” qanunda bu hadisələrə ilk dəfə hüquqi qiymət verildiyi bildirilib.

Bildirilib ki, Azərbaycan tarixinə sərhədçi töhfəsi olaraq Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyinə həsr edilən tədbirlər çərçivəsində DSX-nin inzibati binasında “Siyasi repressiya qurbanları muzeyi”nin yaradılması 1925-ci ildən sonra bu binada dövlətin əsas repressiv orqanlarının fəaliyyət göstərməsi ilə bilavasitə əlaqədardır. Binanın zirzəmisində həbs edilənlərin saxlanılma kameraları, istintaq otaqları, ölüm hökmü çıxarılanların güllələnməsi yerləri mövcud olub. Muzeyin yaradılmasında əsas məqsədlərdən biri də repressiya qurbanlarının xatirəsinə ehtiram və yaxın keçmişimizin qanlı səhifələri haqqında gənc nəslin nümayəndələrinin düzgün məlumatlandırılmasıdır.

Muzeyin ekspozisiyasının əsasını Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər, Milli Arxiv İdarəsinin Dövlət və Kino-Foto arxivlərində, Dövlət Təhlükəsizliyi Xidmətinin arxivində saxlanan sənədlər və fotoşəkillər, həmçinin yerli sənətkarların hazırladıqları kompozisiyalar təşkil edir. Bir sıra sənədlər Rusiya arxivlərindən əldə edilib. Qazaxıstan “ALJİR” siyasi repressiya muzeyi tərəfindən də sənədlər təqdim olunub. Muzeyin ekspozisiyasının hazırlanmasına Mədəniyyət Nazirliyi və AMEA-nın Abbasqulu ağa Bakıxanov adına Tarix İnstitutu tərəfindən də kömək göstərilib. Muzeyin əsas zalında “Danışan sənədlər” adlanan lövhədə repressiyanın həyata keçirilməsi ilə bağlı 1920-1930-cu illərdə qəbul edilmiş sənədlərin surətləri verilib. Azərbaycanda repressiyanı “qanunlaşdıran” ilk sənədlərdən biri kimi Bakı şəhər komendantının 1920-ci il 26 may tarixli əmri daha çox diqqəti cəlb edir. Əmrdə əks olunmuş “Hansı evdən güllə atılsa, həmin ev top atəşinə tutulacaq, 16 yaşından 50 yaşına qədər olan hər kəs mühakiməsiz güllələnəcək. Siqnal və yaxud nişan verənlər tutulduqları yerdə gülləbaran ediləcəklər” müddəası xalqımıza qarşı xüsusi amansızlığı açıq-aydın nümayiş etdirir. Diqqəti çəkən daha bir sənəd SSRİ Mərkəzi İcraiyyə Komitəsinin 1934-cü il 1 dekabr tarixli qərarıdır. Bu qərara əsasən terror aktlarına görə cinayət işlərinin istintaqı və baxılması on gündən artıq olmayan müddətdə başa çatdırılmalı, dindirmələr tərəflərin iştirakı olmadan aparılmalı idi. Bu işlər üzrə hökmlərdən kasasiya şikayəti, həmçinin əfv haqqında vəsatətlərə yol verilmirdi, ölüm cəzası haqqında hökm qəbul edildikdən sonra dərhal yerinə yetirilirdi.

Muzeyin əsas zalında yerləşdirilən lövhələrdən biri repressiyaya məruz qalmış azərbaycanlı hərbi xadimlərə həsr olunub. Burada həm Azərbaycan Xalq Cümhuriyyəti dövründə xidmət etmiş generallar - Həbib bəy Səlimov, Firudin bəy Vəzirov, Süleyman bəy Sulkeviç, İbrahim ağa Usubov və digərləri, həm də sovet Azərbaycanının hərbçiləri - generallar Cəmşid Naxçıvanski və Qambay Vəzirov, polkovniklər Qalib Vəkilov, Məmməd Veysov, Seyfulla Mehtiyev və başqaları haqqında məlumat və fotoşəkillər verilib.

Növbəti lövhə 1920-ci ilin yanvarında təhsil almağa və təhsillərini davam etdirmək üçün Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən Avropaya göndərilən gənclərin təhsillərini başa vurub vətənə qayıdandan sonra məruz qaldıqları repressiyalara həsr edilib. Belə ki, vətənə qayıdan 56 ali təhsilli mütəxəssisin 38-i güllələnib və ya sürgün edilib. Siyasi repressiya qurbanı olan qadınlara həsr edilən lövhədə güllələnmiş beş qadın - Xədicə Qayıbova, Mədinə Qiyasbəyli, Nemət Məlikova, Panfiliya Tanailidi və Ayna Sultanova, həmçinin güllələnmiş “xalq düşmənləri”nin islah-əmək düşərgələrinə sürgün olunmuş həyat yoldaşları haqqında məlumatlar verilib. Lövhədə qadınların həbsi və cəzası ilə bağlı sənədlərin surətləri yerləşdirilib. Tanınmış şair Əhməd Cavadın həyat yoldaşı Şükriyyə Axundzadənin himayəsində dörd azyaşlı uşaq olmasına baxmayaraq, sürgün edilməsi haqqında sənədin surəti də lövhədə yer alıb. Qadınların repressiyasına həsr olunmuş daha bir lövhədə Vətən Xainləri Qadınlarının Akmola Düşərgəsində (ALJİR - Акмолинский Лагерь Жен Изменников Родины) cəza çəkmiş 44 azərbaycanlı qadın haqqında məlumat verilib.

Ayrıca bir lövhə böyük dramaturq və şair Hüseyn Cavidə həsr edilib. Təqdim edilən sənədlərdə dahi mütəffəkirimizin sovet dönəmində üzləşdiyi repressiyalar ifadə olunub. Növbəti lövhədə Azərbaycan ziyalılarının məruz qaldıqları repressiyalardan bəhs edilir. Burada şair Mikayıl Müşfiq, pedaqoq Tağı Şahbazi, aktyor Abbas Mirzə Şərifzadə və digərlərinin güllələnmələri barədə aktların və arayışların surətləri nümayiş olunur.

Muzeydə azərbaycanlıların Ermənistandan deportasiyasına xüsusi diqqət ayrılıb. Müvafiq lövhədə yerləşdirilmiş sənədlər sonda azərbaycanlıların doğma torpaqlarından deportasiyası ilə yekunlaşan SSRİ rəhbərliyinin xaricdə yaşayan ermənilərin Ermənistana köçməsinə dəstəyi, Ermənistanda yaşayan azərbaycanlıların vəziyyətinə kifayət qədər diqqət ayırmaması siyasətindən xəbər verir. Həmin lövhədə Sovet İttifaqı Kommunist Partiyasının və SSRİ-nin icra orqanlarının Azərbaycanda yaşayan almanların və İran təbəəsi olan azərbaycanlıların respublikadan çıxarılmaları haqqında sənədlərin surətləri də yerləşdirilib. 1920-ci ildən başlayan siyasi repressiyaların ilk qurbanları Azərbaycan Xalq Cümhuriyyətinin tanınmış simaları - parlament və hökumət üzvləri olublar. Bir çox müsavatçıların və ittihadçıların güllələnməsi və sürgün edilməsi barədə sənədlərin surətləri bolşeviklərin siyasi rəqiblərinə qarşı nə qədər amansız olduğundan xəbər verir. Həmin illərdə Azərbaycanın qabaqcıl ziyalılarının məruz qaldıqları siyasi repressiyaların təşkilində Azərbaycanın repressiv orqanlarında o dövrdə məsul vəzifələr tutmuş milliyyətcə erməni olan şəxslərin böyük rolunun olması da qeyd edilib.

Repressiya illərində bolşeviklərin siyasi məhbuslarla davranması barədə ziyarətçilərdə təsəvvür yaratmaq məqsədilə muzeydə saxlama kameraları, karserlər, dindirilmə, güllələnmə otaqları tarixi rekonstruksiya üsulu ilə bərpa edilib. Muzeyin dəhlizlərində qanunsuz həbsə etirazı, azadlığa can atmanı simvolizə edən kompozisiyalar quraşdırılıb. “Repressiya burulğanı”, “Ümid işığında” adlı kompozisiyalarda zindan həyatını yaşamış və vətənindən didərgin edilmiş soydaşlarımızın keçirdikləri iztirab və əziyyətləri rəmzi formada ifadə olunub.

Muzey fəaliyyətə başladıqdan sonra Rusiya və Qazaxıstanda keçmiş islah-əmək düşərgələri və sürgün ərazilərində təşkil olunan siyasi repressiya muzeyləri ilə əlaqə yaradılması, həmin düşərgələrdə cəza çəkmiş azərbaycanlılar haqqında məlumatların toplanılması və yenilənmiş ekspozisiyalar vasitəsilə ziyarətçilərin diqqətinə çatdırılması, siyasi repressiya qurbanlarının yaxın qohumlarının muzeyin işinə cəlb edilməsi, qanunsuz təqib olunan şəxslərə məxsus sənədlərin və əşyaların əldə olunması istiqamətində fəaliyyətin həyata keçirilməsi nəzərdə tutulub.

Dövlət Sərhəd Xidməti muzeyin fəaliyyətinə kömək məqsədilə siyasi repressiya qurbanlarının nəvə və nəticələrini, yaxın qohumlarını əməkdaşlığa dəvət edir, muzeyin fondlarının zənginləşdirilməsinə töhfə verə biləcək hər bir təşəbbüsü dəstəkləyir.

## Silahlı Qüvvələrin genişmiqyaslı əməliyyat-taktiki təlimlərinin yekunları müzakirə olunub

Silahlı Qüvvələrin genişmiqyaslı əməliyyat-taktiki təlimlərinin yekunları ilə bağlı müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xidməti müşavirə keçirilib.



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən, gecə vaxtı keçirilən genişmiqyaslı təlimlərin nəticələrini təhlil edən general-polkovnik Zakir Həsənov qarşıya qoyulan tapşırıqların müvəffəqiyyətlə yerinə yetirildiyini deyib. Nazir təlimlərin əhəmiyyətini qeyd edərək Ali Baş Komandanın Azərbaycan Ordusu qarşısında qoyduğu müvafiq tapşırıqları komandir-rəis heyətinə çatdırıb.

General-polkovnik Zakir Həsənov regiondakı mövcud hərbi-siyasi vəziyyətə toxunaraq Ermənistanda baş verən daxili siyasi qarşıdurmanın qoşunların təmas xəttindəki vəziyyətin gərginləşməsinə səbəb ola biləcəyini də xüsusi qeyd edib. Müdafiə naziri qoşunlara düşmənin irimiqyaslı təxribatlarının qarşısını sərəncamda olan silahlardan istifadə etməklə dərhal almağı tapşırıb.

## Azərbaycan ilə Gürcüstan arasında dövlət sərhədlərinin delimitasiyası və demarkasiyası üzrə komissiyaların 12-ci iclası keçirilib

Mayın 23-24-də Bakıda Azərbaycan Respublikası ilə Gürcüstan arasında dövlət sərhədlərinin delimitasiyası və demarkasiyası üzrə komissiyaların 12-ci iclası keçirilib. Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Azərbaycan Respublikasının nümayəndə heyətinə xarici işlər nazirinin müavini, Azərbaycan Prezidentinin sərhədlər və Xəzər dənizi məsələləri üzrə xüsusi nümayəndəsi Xələf Xələfov başçılıq edib. Gürcüstan tərəfindən nümayəndə heyətinə xarici işlər nazirinin müavini, Gürcüstan hökumətinin sərhədlər məsələləri üzrə xüsusi nümayəndəsi Laşa Darsaliya başçılıq edib.

Görüşdə, həmçinin ekspertlər və hər iki ölkənin müvafiq dövlət orqanlarının təmsilçiləri iştirak ediblər.

Dövlət sərhədi xəttinin keçməsi məsələləri nəzərdən keçirilib və bütün razılaşdırılmamış qalan hissələrin təfərrüatlı müzakirəsi aparılıb.

İclasın nəticələrinə dair tərəflər razılaşdırılmamış qalan hissələrə yerində ekspertlər səviyyəsində birgə baxışın keçirilməsini qərara alıblar.

Eləcə də tərəflər dövlət sərhədi xəttinin müəyyən olunması ilə əlaqədar müvafiq normativ-hüquqi sənədlərin və kartoqrafik materialların tədqiq edilməsi və dəyərləndirilməsi haqqında razılığa gəliblər.

Tərəflər komissiyaların növbəti iclasının Tbilisi şəhərində keçirilməsini razılaşdırıblar. Tarix diplomatik kanallar üzrə razılaşdırılacaq.







# İLHAM ƏLİYEVə bütün Azərbaycan xeyir-dua verir

## Prezident yalnız inkişafın, quruculuğun və islahatların təkmil modellərini yaratmır, ən əsası, yeni dövr liderliyin, mükəmməl idarəçiliyin, şəffaf və hesabatlı fəaliyyətin meyarlarını formalaşdırır

*Əvvəli 1-ci səh.*

Mühüm psixoloji təəssüratlar idi. Ən maraqlı məqam isə o insanların Prezidentə xitabla "Bilirdik ki, Siz gələcəksiniz, bizi burda tək qoymayacaqsınız" deməleri oldu.

Bəli, Azərbaycan vətəndaşları, - istər paytaxtda, istər Lerikdə, Gədəbəydə, Qusarda, İmişlidə olsun, - harada yaşamalarından asılı olmayaraq bilirlər ki, çətin günlərində güvənəcəkləri, arxalanacaqları bir dayaqları - Liderləri - İlham Əliyevləri var!

Yalnız elə son dörd ayda 3,5 milyon insan, xalqın üçdəbiri yeni sosial paketdən bəhrələnmədimi?!.

Bu qayğı silsiləsini sadalamağa davam etsək, son ayların humanist qərarlarını yada salsaq, görün neçə səhifə alınar?!.

### Məmurlar Prezidentdən necə nümunə götürürlər?..

Bəli, Prezident yalnız inkişafın, quruculuğun və islahatların təkmil modellərini yaratmır, ondan da vacibi, ondan da əsası, yeni dövr liderliyin, mükəmməl idarəçiliyin, şəffaf və hesabatlı fəaliyyətin meyarlarını formalaşdırır.

Və bu meyarlar hökmən bütün məmurların - nazirlərdən icra başçılarına, mənzil-istismar idarələri rəislərinədək hər birinin fəaliyyət istinadgahına çevrilməlidir: bunu illərdir Prezident də tələb edir!

Prezident ortaya mükəmməl nümunə qoyur: əhali ilə hər görüş həm rəhbərin öz fəaliyyətinin hesabatını vətəndaşlarına verməyə, həm də onların qayğılarını, rəylərini öyrənməyə şərait yaradır. Yəni İlham Əliyevin "hesabatlı fəaliyyət - xalqın rəyi ilə hesablaşılan idarəçilik" metodunu əks etdirir.

Məsələn, Prezident son sərəncamları məhz əhali ilə görüşlərdə qaldırılan problemlər əsasında imzaladığını bəyan edib. Yəni vətəndaşlar onları narahat edən məsələlər, qayğılar barədə rəhbərlərinə məlumat verir, Prezident də onları diqqətlə, dəqiqliklə araşdırır və müvafiq qərarını verir. Elə İlham Əliyevin məhkəmə hüquq sistemindəki problemlərlə bağlı son vaxtlar səsləndirdiyi tənqidi fikirlər və bu sahədə köklü islahatlara rəvac verəcək "yol xəritəsini" - müvafiq sərəncamı imzalaması da məhz bu görüşlərdə səslənən narazılıqların təzahürüdür.

Prezidentin məmurlardan əsas tələbi budur: xalqın rəyini, problemlərini öyrənin, ancaq işinizi bununla bitirməyin, o rəylər əsasında fəaliyyətinizi qurun, problemləri isə həll edin!

Düzdür, uzun müddətdir Prezidentin tapşırığı ilə mərkəzi icra strukturlarının və yerli orqanların rəhbərləri vətəndaşların qəbulu prosesini intensivləşdiriblər. Amma bu qəbullarda, görüşlərdə də İlham Əliyev nümunəsi örnək götürülməlidir. Yəni əsas görüş deyil, əsas nəticədir - görüşdə səslənən problemlərin həlli vəziyyətidir. Bu baxımdan paytaxt rəhbərliyinin həyata keçirdiyi, Prezidentin tapşırığı ilə indi artıq miqyası da genişlənən "Açıq mikrafon" formatlı qəbulların təşkili diqqəti xüsusi cəlb edir və onların bölgələrdə də davamı səmərəli nəticələr verər.

Ötən ilin aprelindən etibarən Prezident fəaliyyətinin yeni dövrü, islahatların isə növbəti mərhələsi başlayıb. Proses uğurla gedir, real nəticələr verir.

İlham Əliyev paytaxtı kəndbəkənd, az qala məhəllə-məhəllə gəzir, məmləkətin cənubdan şimala, qərbdən şərqə doğru bütün bölgələrinə səfər edir. Hər yerdə də eyni üslubdadır: xalqına hesab verir və xalqının rəyini öyrənir.

*Amma unutmayaq, əhali Liderinə yalnız qayğılarından, çətinliklərindən danışmır, ondan daha artıq öz sevgisindən, etimadından bəhs edir, Prezidentə tam güvəndiklərini söyləyir...*

*Bütün Azərbaycan İlham Əliyevə xeyir-dua verir...*

***İxtiyar HÜSEYNLİ,***
***"Azərbaycan"***

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunda olub



Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva B.Ə.Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunda olub.



AZƏRTAC xəbər verir ki, Leyla Əliyeva burada müalicə alan uşaqlarla görüşüb, onlarla söhbət edib.

Tibbi heyətlə görüşən Leyla Əliyeva uşaqların müalicəsinin gedişi və müəssisədə yaradılmış şəraitlə tanış olub.

Qeyd edək ki, institut hazırda üç hissədən ibarətdir: klinika, Mərkəzi Qan Bankı və elm bölməsi. Klinikanın tərkibinə böyüklər üçün iki hematoloji şöbə, uşaq hematologiyası, reanimasiya və intensiv terapiya, konsultativ poliklinika, klinik-diaqnostik laboratoriya və talassemiyanın profilaktikası şöbələri daxildir.

2017-ci ildə Dövlət Proqramı çərçivəsində institutda yeni immunohistoloji müayinələrin aparılması üçün laboratoriya da yaradılıb. Burada immunohistokimyəvi müayinələrin köməyi ilə qanın bədxassəli xəstəliklərinin tam diferensial diaqnostikası, hədəf terapiyanın monitorinqi və xəstəliyin proqnozu müəyyən edilir. Artıq leykozların diaqnostikası və müalicəsi məqsədilə xəstələrin digər ölkələrə getməsinə ehtiyac qalmır.

# Məcburi köçkünlərə dövlət qayğısının nümunəvi göstəriciləri

## Ermənistanın işğalçılıq siyasətindən əziyyət çəkənlər üçün son 13 ildə 100-dən çox köçkün qəsəbəsi və şəhərciyi salınıb, 50 min ailə yeni mənzillərlə təmin olunub

*Əvvəli 1-ci səh.*

Buna nail olundu, hətta 5 il yox, 4 il ərzində. Son çadır şəhərciyi 2007-ci ildə köçürüldü. Çadır şəhərciklərində ağır şəraitdə yaşayanlar yeni salınan 100-dək müasir yaşayış qəsəbəsinin sakinlərinə çevrildilər. Ümumilikdə bu, 50 min ailənin, o cümlədən 250 mindən çox insanın yaşayış şəraitinin yaxşılaşdırılması, yeni mənzillə təmin olunması demək idi.

Son 13 ildə 400 mindən çox məcburi köçkün yeni iş yeri ilə təmin olunub. Hər bir qəsəbədə məktəblər, uşaq bağçaları salınıb. Ali və orta ixtisas məktəblərində ödənişli oxuyan məcburi köçkün ailələrindən olan tələbələr təhsil haqqı ödəməkdən azad ediliblər. Bu gün də dövlət tərəfindən həyata keçirilən bir sıra proqramlar, özünüməşğulluq, regionlarda ictimai işlərə aid yerlərin açılması məhz həmin məqsədə, əhalinin həssas təbəqəsinin sosial problemlərinin həllinə yönəldilib.

Ümumiyyətlə, Azərbaycan dövlətinin bu sahədə təcrübəsi - həm çadır şəhərciklərinin ləğvi, həm də humanitar faciənin qarşısının alınması çox nadir hesab olunur. Bu, bütün beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir. Doğrudur, Azərbaycan Prezidentinin məcburi köçkünlərlə görüşlərinin birində qeyd etdiyi kimi, bu sahədə hələ də öz həllini gözləyən problemlər mövcuddur: "Bakı və Sumqayıt şəhərlərində yararsız, qəzalı vəziyyətdə olan binalarda hələ də minlərlə insan yaşayır... Məhz bu probleme - qaçqın və məcburi köçkün ailələrinin Bakı və Sumqayıt şəhərlərində qəzalı binalardan köçürülməsinə həsr olunmuş müşavirə keçirilmiş, bütün lazımi tapşırıqlar verilmişdir. Birinci mərhələdə ən qəzalı binalarda yaşayan 4 min ailənin köçürülməsi üçün tədbirlər planı hazırlanmışdır. Hazırda bu plana uyğun olaraq Abşeron rayonunun Masazır qəsəbəsində 3 bina, Sabunçu rayonunun Ramana qəsəbəsində 1 bina inşa olunur. Sumqayıt şəhərində qaçqın və məcburi köçkün ailələri üçün artıq 5 binanın tikintisi başlayıb və digər 5 binanın inşası üçün yer ayrılıb, yaxın zamanda tikinti işləri başlayacaq. Bununla yanaşı, həm Bakı şəhərində, həm də Sumqayıtda artıq tikilmiş hazır binalarda həmin məqsəd üçün dövlət tərəfindən mənzillər alınır".

Təqdirəlayiq haldır ki, dövlətlə yanaşı, biznes strukturları, sahibkarlar da ölkəmiz üçün çox vacib olan bu məsələyə - soydaşlarımızın yaşayış şəraitinin yaxşılaşmasına biganə qalmayıb, öz dəstəyini verməyə başlayıblar.



### Humanitar faciənin qarşısının alınması vəziyyəti dəyişdi

Dövlət başçısının dəfələrlə vurğuladığı kimi, məqsəd güclü və inkişaf etmiş dövlət qurmaq, hər bir Azərbaycan vətəndaşının rahat yaşamasına nail olmaqdır. Bu gün Azərbaycan inkişaf sürətinə görə Avropada lider ölkələrdən biridir. Məhz bu imkan və inkişafın nəticəsidir ki, nəinki ümumi ölkə əhalisi, o cümlədən məcburi köçkünlərin də həyat şəraitinin yaxşılaşdırılması qarşıda duran əsas məqsədlərdən birinə çevrilib. Daha 4 min məcburi köçkün ailəsini yeni mənzillərlə təmin etmək, qəzalı, yararsız binalardan köçürülməsinə nail olmaq da humanitar siyasətin tərkib hissəsidir.

Bakının Kürdəxanı qəsəbəsində 810 məcburi köçkün ailəsi üçün salınan yeni yaşayış kompleksinin istifadəyə verilməsi, dövlət başçısının vurğuladığı kimi, bir daha ölkədə sosial siyasətin davamlılığını göstərir: "Məcburi köçkünlərin problemlərinin həlli Azərbaycan üçün ən aktual və prioritet məsələlərdəndir. Hamımız yaxşı bilirik ki, bu siyasətin bünövrəsi ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. Məhz onun təşəbbüsü ilə ilk şəhərcik salınmış, Dövlət Neft Fondundan ilk ödəmələr bu məqsədə sərf olunmuşdur. O vaxtdan bugünədək 100-dən çox köçkün qəsəbəsi və şəhərciyi salınıb. Öz doğma yurdlarından didərgin düşmüş soydaşlarımızın böyük hissəsi artıq illərdir ki, həmin qəsəbə və şəhərciklərdə rahat həyat sürürlər..."

Bakı, Sumqayıt, Abşeron rayonunda, digər şəhər və bölgələrdəki məcburi köçkünlərin əksəriyyətinin mənzillə bağlı qayğıları həll olunub. Hələ 12 il bundan əvvəl - 2007-ci ildə ölkədəki 12 çadır düşərgəsi ləğv edilib. Ümumilikdə bu kateqoriyadan olan soydaşlarımızın sosial problemlərinin həlli üçün indiyə kimi 7,1 milyard manat vəsait xərclənib. Yalnız 2018-ci ildə məcburi köçkünlər üçün 5 mindən çox mənzil inşa edilib. Bu il isə, ən azı, 6 min mənzilin istifadəyə verilməsi nəzərdə tutulub.

Daha bir fakt - paytaxtdakı yataqxanalarda və digər inzibati binalarda müvəqqəti məskunlaşmış 810 məcburi köçkün ailəsi üçün salınan çoxmərtəbəli binalardan ibarət yeni yaşayış məhəlləsinə ayrılan 15 hektar torpaq sahəsində 2018-ci ilin əvvəlindən başlanan tikinti işləri başa çatıb. 15 ədəd doqquzmərtəbəli binadan ibarət yeni kompleksdə məktəb və uşaq bağçası, klub-icma mərkəzi, həkim məntəqəsi inşa edilib, istirahət parkı salınıb. Yeni yaşayış yerinin açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyev bu istiqamətdə atılan mühüm addımlardan danışarkən Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə həyata keçirilən sosial layihənin əhəmiyyətinə də toxundu. Bildirildi ki, yalnız Qaradağ rayonunda 1026 məcburi köçkün ailəsi üçün yaşayış kompleksi inşa olunub. Abşeron rayonunun Masazır, Mehdiabad, həmçinin Sabunçu rayonunun Ramana qəsəbələrində isə 470 ev məcburi köçkünlərə təqdim edilib. Heydər Əliyev Fondu tərəfindən alınan 465 mənzilə Binəqədi rayonu, 9-cu mikrorayon ərazisindəki Təcili Tibbi Yardım Stansiyasının yarımçıq binasında məskunlaşmış məcburi köçkün ailələri köçürülüb.

### Məcburi köçkünlərin sosial şəraiti daha da yaxşılaşdırılır

Məcburi köçkünlərlə görüşündəki çıxışında Prezident İlham Əliyev bildirdi ki, salınan qəsəbələr arasında elələri var ki, vaxtilə işğal olunmuş və işğaldan azad edilmiş torpaqlarda salınıb: "...O cümlədən Horadiz şəhəri, demək olar ki, yenidən qurulub və bu gün ən gözəl yaşayış yerlərindən biridir. Şıxarx qəsəbəsində mindən çox köçkün ailəsi məskunlaşıb, hansı ki, o ərazilər işğal altında idi. Cocuq Mərcanlıda 150 evdən ibarət gözəl qəsəbə salınıb, müasir infrastruktur, iş yerləri, kommunikasiyalar yaradılıb. Yeni bu yerlərə həyat qayıdıb..."

Ümumiyyətlə, dövlət başçısı məcburi köçkünlərin problemlərinin həllinə kompleks şəkildə yanaşmağa üstünlük verir. Yəni söhbət yalnız yeni binaların tikilməsindən, şəhərciklərin salınmasından getmir. Eyni zamanda, məcburi köçkünlərin bütünlükdə sosial şəraiti yaxşılaşdırılır, onlara dövlət tərəfindən verilən sosial dəstək artır. Bu yaxınlarda daha bir sosial paketin təsdiqlənməsi, o cümlədən məcburi köçkünlərin müavinətlərinin 50 faiz artırılması da həmin qəbildən olan məsələlər sırasındadır. Ölkənin artan iqtisadi gücü, yaranan maliyyə imkanları yol verir ki, sosial məsələlərə əlavə vəsaitlər yönəldilsin.

Unutmaq olmaz ki, bir sıra nüfuzlu beynəlxalq təşkilatların rəhbərləri, o cümlədən, BMT-nin Qaçqınların İşi üzrə sabiq ali komissarı, BMT-nin baş katibi Antonio Quterreş sessiyalardakı çıxışları zamanı Azərbaycan Prezidentinin bu sahədə gördüyü işlərin və dövlətimizin təcrübəsinin dünyanın bir çox ölkələri üçün nümunə olduğunu vurğulayıb.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# Prezidentin regional inkişaf strategiyası bölgələrin sosial simasını dəyişmiş, iqtisadi gücünü artırmışdır

*Əvvəli 1-ci səh.*

Dövlət proqramları çərçivəsində görülən işlər ölkədə həyata keçirilən sosial-iqtisadi inkişafa da müsbət təsir göstərmişdir. Bunun sayəsində 2004-2018-ci illərdə ümumi daxili məhsul real ifadədə 3,3, o cümlədən qeyri-neft sektoru 2,8 dəfə artmışdır. Bu dövrdə sənaye real ifadədə 2,6, o cümlədən qeyri-neft sənayesi 2,4, kənd təsərrüfatı 1,7 dəfə çoxalmışdır. Strateji valyuta ehtiyatları 2004-cü ilə nisbətən 24,3 dəfə artaraq 1 yanvar 2019-cu il tarixinə 45 milyard ABŞ dolları səviyyəsini keçmişdir. Dövlət proqramlarının icrası dövründə xarici ticarətin coğrafiyası daha da genişlənmiş, onun əmtəə strukturu təkmilləşmişdir. Bu dövrdə Azərbaycan 190-a yaxın ölkə ilə xarici ticarət əməliyyatları aparmış, qeyri-neft məhsullarının ixracı 4,2 dəfə artmışdır.

Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları ölkədə qeyri-neft sənayesinin inkişafına böyük təkan vermişdir. Belə ki, 2004-2018-ci illər ərzində innovasiya xarakterli texnologiyaların tətbiqi davam etmiş, yeni müəssisələr yaradılmış, onların istehsal potensialı artmış, ölkə sənayesində 2,6 dəfə real artım qeydə alınmışdır.

Həmin dövrdə ölkədə sahibkarlığın inkişafına göstərilən dövlət dəstəyi də öz müsbət nəticəsini vermişdir. Bunu statistik rəqəmlər də təsdiq edir. Məsələn, 2003-cü ildə sənaye məhsulunun ümumi həcmində özəl sektorun payı 56,8 faiz təşkil edirdisə, hazırda bu rəqəm 80 faizdən çoxdur. Bütün bunlar sənayedə işgüzar mühitin yaradılmasına, kiçik və orta sahibkarlığın inkişafına dövlət dəstəyi sayəsində mümkün olmuşdur.

Regional inkişafla bağlı qəbul olunan dövlət proqramları çərçivəsində qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək, ölkədə innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalının inkişafı üçün münbit şərait yaratmaq, müasir texnologiyalara əsaslanan sənaye müəssisələrini təşkil etmək, əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq məqsədilə bölgələrdə sənaye parklarının, sənaye məhəllələrinin yaradılması istiqamətində xeyli iş görülmüşdür. Belə ki, Prezidentin müvafiq fərman və sərəncamları ilə Sumqayıt Kimya Sənaye və Mingəçevir Sənaye parkları, həmçinin Neftçala, Masallı, Hacıqabul və Sabirabad sənaye məhəllələri yaradılmışdır. Bu isə regionlarda sənaye sahəsində fəaliyyət göstərən sahibkarların, o cümlədən kiçik və orta sahibkarların fəaliyyətinin dəstəklənməsi, əlverişli biznes və investisiya mühitinin yaradılması, yeni iş yerlərinin açılması baxımından mühüm əhəmiyyətə malikdir.

Dövlət proqramlarında ölkədə daha çox tələbat olan yüngül sənaye məhsullarının istehsalına da xüsusi diqqət yetirilmişdir. Bu sahədə idxaldan asılılığın azaldılması və ixrac potensialının artırılması, milli tekstil brendlərinin yaradılması istiqamətində həyata keçirilən işlərin davamı olaraq Mingəçevir Sənaye Parkı yaradılmışdır. Hazırda rezident kimi qeydiyyata alınmış "Mingəçevir Tekstil" MMC-nin iplik istehsalı üzrə 2 fabriki istifadəyə verilmiş və burada 750 yeni iş yeri açılmışdır.

Regionlarda kiçik və orta sahibkarlığın genişləndirilməsi, yerli ehtiyatlardan səmərəli istifadə etməklə sənaye sahələrinin inkişaf etdirilməsi, sahibkarlar arasında kooperasiya əlaqələrinin gücləndirilməsi, məşğulluqda sənayenin xüsusi çəkisinin artırılması baxımından sənaye məhəllələrinin yaradılması da xüsusi önəm kəsb edir. Azərbaycanda ilk sənaye məhəlləsi olan Neftçala Sənaye Məhəlləsində 9 müəssisə və 1 kiçik sahibkarlıq emalatxanası fəaliyyət göstərir.

Neftçala Sənaye Məhəlləsində "Azərmaş" ASC və "İran Khodro" şirkətlərinin birgə yaratdıqları "Khazar" Avtomobil Zavodu fəaliyyət göstərir. Hazırda 125 nəfərin çalışdığı zavodda gələcəkdə işçilərin 300 nəfərədək artırılacağı planlaşdırılır. İllik istehsal gücü 10 min avtomobil olan zavodda hazırlanan avtomobillərin bir hissəsi MDB, Yaxın Şərq və Afrika ölkələrinə ixrac ediləcək. Gələcəkdə zavodun istehsal gücünün 50 minə qədər çatdırılması planlaşdırılır. Bununla yanaşı, Masallı Sənaye Məhəlləsində 10 müəssisə fəaliyyət göstərir. Həmçinin Hacıqabul Sənaye Məhəlləsinin fəaliyyətə başlaması üçün tikinti-quraşdırma işləri həyata keçirilir.

Dövlət proqramlarının icrasında aqrar sektorun inkişafına geniş yer ayrılıb. Bu hesaba ölkədə ərzaq təhlükəsizliyinin təmin olunması üçün bitkiçilik və heyvandarlıq sahələri inkişaf etmiş, ərzaq məhsulları ilə özünü təminetmə səviyyəsi daha da yaxşılaşmışdır. Həmin müddətdə iri fermer təsərrüfatları, aqroparklar, intensiv bağçılıq təsərrüfatları, müasir istixanalar, logistik mərkəzlər yaradılmış, kənd təsərrüfatı məhsulları istehsalının inkişafına xidmət edən infrastrukturun maddi-texniki bazası möhkəmləndirilmişdir.

Aqrar sektorun innovativ əsaslara keçirilməsi, o cümlədən aqroparkların yaradılması əsas hədəflərdəndir. Dövlət başçısının tapşırığına uyğun olaraq hazırda 33 rayon üzrə 258,3 min hektar ərazidə 51 aqroparkın, o cümlədən 17 müasir cins heyvandarlıq kompleksinin və 34 iri bitkiçilik təsərrüfatlarının yaradılması üzrə işlər sürətlə davam edir. Bununla yanaşı, Prezidentin ənənəvi kənd təsərrüfatı sahələrinin - pambıqçılığın, baramaçılığın, ipəkçiliyin, tütünçülüyün, çəltikçiliyin, çayçılığın, fındıqçılığın, sitrus meyvəçiliyinin, üzümçülüyün və şərabçılığın inkişafı istiqamətində imzaladığı sərəncamlar, həmçinin istehsalçılara yetişdirdiyi məhsula görə subsidiyaların verilməsi istehsal və ixrac potensialının artırılmasına və məşğulluq səviyyəsinin yüksəlməsinə geniş imkan yaratmışdır. Aqrar sahədə həyata keçirilmiş sistemli tədbirlər sayəsində ölkəmizin kənd təsərrüfatı və ərzaq məhsulları üzrə özünütəminetmə səviyyəsi yüksəlmiş, ərzaq məhsullarının istehsalı artmış, ixrac imkanları genişlənmişdir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin üzvləri Milli Məclisdə olublar







Mayın 24-də Yeni Azərbaycan Partiyası (YAP) Gənclər Birliyinin üzvləri Milli Məclisdə olublar.

AZƏRTAC xəbər verir ki, əvvəlcə gənclər Milli Məclisdə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət ediblər.

Sonra YAP Gənclər Birliyinin üzvləri parlamentin iclas zalı ilə tanış olublar. Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev parlamentin fəaliyyəti haqqında gənclərə məlumat verib. Bildirib ki, parlamentin binası hələ sovetlər dövründə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə tikilərək istifadəyə verilib. Azərbaycan parlamentinin keçdiyi yolun əhəmiyyətindən danışan Səfa Mirzəyev qeyd edib ki, Milli Məclisdə 125 deputat təmsil olunur. 1995-ci ildən indiyədək parlament 2000-dən çox qanun və qərar qəbul edib.

YAP Gənclər Birliyinin üzvləri, həmçinin parlamentdə "Heydər Əliyev" muzeyi ilə də tanış olublar.

Sonra "Azərbaycan parlamentarizm tarixi: dünəni və bu günü" mövzusunda "dəyirmi masa" işinə başlayıb. Tədbiri açan Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri, YAP icra katibinin müavini Siyavuş Novruzov mövzunun aktuallığını vurğulayaraq bildirib ki, gənclərimiz xalqımızın tarixini, o cümlədən parlamentin tarixini dərindən öyrənməlidirlər. Bu baxımdan, belə bir "dəyirmi masa"nın keçirilməsi əhəmiyyətlidir. Bir neçə gündən sonra Azərbaycan Xalq Cümhuriyyətinin 101-ci ildönümü qeyd olunacaq. Bu münasibətlə YAP Gənclər Birliyi üzvlərinin Milli Məclislə tanışlığı Azərbaycanın siyasətini, qanunvericiliyini, iqtisadiyyatını daha dərindən öyrənilməsinə yaxşı imkan yaradıb.

Milli Məclis Sədrinin müavini, İnsan hüquqları komitəsinin sədri Bahar Muradova məruzə ilə çıxış edib. 28 May - Respublika Gününün tariximizdə mühüm yer tutduğunu qeyd edən B.Muradova bildirib ki, cümhuriyyət irsini öyrənməli, bundan ibrət dərsi götürməliyik. Bu gün biz Azərbaycan Xalq Cümhuriyyəti qurucularını böyük hörmətlə yad edirik və yoxdan bir dövlət yaradan insanları unutmamalıyıq. Cümhuriyyət qurucuları mühacirətdə olduqları dövrdə də Azərbaycanın bir zaman yenidən müstəqillik qazanacağına inamlarını itirməmişdilər. Bu insanların irsini qorumaqla yanaşı, müasir Azərbaycan dövlətini də qorumalıyıq.

Azərbaycan parlamentinin 1918-ci ildə fəaliyyətə başladığını diqqətə çatdıran B.Muradova deyib: "Parlament fəaliyyət göstərdiyi müddət ərzində mühüm qanun və qərarlar qəbul edib, o dövrdən indiyədək şərəfli yol keçib. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, əgər cümhuriyyət qurucuları yaşasaydılar, bugünkü müstəqil Azərbaycanla qürur duyardılar.

1993-cü ildə Azərbaycan müstəqilliyini itirmək təhlükəsi ilə qarşı-qarşıya idi, o dövrdə hakimiyyətin xalqın maraqlarına uyğun olmayan fəaliyyəti bizi çox çətin vəziyyətə salmışdı. Ulu öndər Heydər Əliyevin xalq tərəfindən Bakıya çağırılması düzgün qərar idi. O qərarı həmin dövrün şərtləri diktə edirdi. Heydər Əliyev o zaman xalqın səsinə səs verdi, Azərbaycanı çətin vəziyyətdən, müstəqilliyini itirmək təhlükəsindən xilas etdi. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dünyada böyük nüfuz sahibidir. Biz beynəlxalq əlaqələrin qurulmasında yaxından iştirak edirik. Parlamentimizdə çoxsaylı dostluq qrupları fəaliyyət göstərir. Bu gün Azərbaycan dünya dövlətləri içərisində sayılıb-seçilən ölkədir, parlamentimiz dünya parlament ailəsinin üzvüdür", - deyə B.Muradova bildirib.

Milli Məclis Sədrinin müavini deyib ki, ermənilər həm cümhuriyyət dövründə, həm də sonralar Azərbaycana qarşı ərazi iddiaları irəli sürüblər. O zaman Azərbaycan Xalq Cümhuriyyəti Milli Şurasının İrəvanı Ermənistana paytaxt kimi verilməsi barədə qərarının ağrı-acılarını bu gün də hiss edirik. İrəvanın Milli Şura tərəfindən hansı şərtlər daxilində Ermənistana verilməsi məlumdur. Qərarda belə bir şərt qoyulmuşdu ki, Ermənistan Azərbaycana qarşı ərazi iddiaları qaldırmayacaq, oradakı azərbaycanlıların yaşayışına müdaxilə etməyəcək. Milli Şuranın əsas xidməti müdafiə qabiliyyətini möhkəmləndirmək, Bakını işğaldan azad etmək olub. Beləliklə, Bakı ermənilərin işğalından qurtularaq Azərbaycanın paytaxtına çevrilib.

Sonra "dəyirmi masa"da Milli Məclis Sədrinin müavini, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Valeh Ələsgərovun "Azərbaycanda enerji təhlükəsizliyi" mövzusunda məruzəsi dinlənilib. Qeyd olunub ki, 1990-cı illərin əvvəlində səriştəsiz hakimiyyət Azərbaycanı çətin vəziyyətə salmışdı. O zaman ölkədə nə enerji, nə də ki qida təhlükəsizliyi təmin edilmirdi. Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycanda bu və digər problemlər öz həllini tapdı.

V.Ələsgərov deyib ki, investorlar üçün şərtlər sadələşdirilməklə əlverişli imkan yaradıldı. "Əsrin müqaviləsi" adını almış neft kontraktları imzalandı. Neftimiz dünya bazarına çıxarıldı. O zaman Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin çəkilməsinin qarşısını almağa çalışan ölkələr vardı. Heydər Əliyev bu layihəni şəxsən Dünya Bankının rəhbərlərinə təqdim etdi. Ulu öndərin nüfuzu sayəsində bu qlobal layihə reallaşdı.

Diqqətə çatdırılıb ki, bu gün Azərbaycan artıq özünü beynəlxalq arenada təsdiqləyib. Azərbaycanda həmrəylik, iqtidar-xalq birliyi olmasaydı, bu işləri həyata keçirmək mümkün olmazdı.

"Dəyirmi masa"da gənclərə ölkəmizin təşəbbüsü ilə həyata keçirilən transmilli neft, qaz, nəqliyyat layihələri barədə ətraflı məlumat verilib.

"Azərbaycanda təhlükəsizlik sistemi. Dağlıq Qarabağ münaqişəsi və onun həlli yolları" mövzusunda çıxış edən Milli Məclis Sədrinin birinci müavini, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov xatırladıb ki, 1991-ci ildə müstəqillik haqqında Konstitusiya Aktı qəbul edildi. Bu, dövlət müstəqilliyinin ilk hüquqi bazası oldu. Həmin sənədin qəbulundan sonra Azərbaycanda hüquqi dövlət quruculuğu başladı. Lakin sənəddə təsdiq edilən konkret addımları ata bilmədik. O vaxt hakimiyyətdə olan təcrübəsiz insanlar və torpaqlarımızın işğalı imkan vermədi ki, qəbul edilən prinsiplər, normalar həyata keçirilsin.

Azərbaycan Xalq Cümhuriyyətinin hüquqi varisi olan müasir Azərbaycan Respublikasında təhlükəsizlik məsələlərindən bəhs edən Ziyafət Əsgərov bildirib ki, Dağlıq Qarabağ münaqişəsi 1988-ci ilin fevralından başlayan məsələ deyil, ermənilərin Azərbaycana qarşı ərazi iddialarının 200 illik tarixi var. Çünki onlar Qafqazın aborigen əhalisi deyil. Hazırda Ermənistanın paytaxtı olan İrəvan şəhəri də qədim Azərbaycan torpağıdır.

XX əsrdə Azərbaycanın dövlətçilik tarixi, ərazisi, beynəlxalq aləmdəki mövqeyi barədə tarixi faktları diqqətə çatdıran birinci vitse-spiker Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏT-in Minsk qrupunun yaranma tarixi və fəaliyyəti, BMT Təhlükəsizlik Şurasının məlum dörd qətnaməsi, ölkəmizin suverenliyinin və ərazi bütövlüyünün bütün beynəlxalq sənədlərdə təsbit olunduğu, lakin ikili standartlar ucbatından işğalçı Ermənistana kifayət qədər təzyiq göstərilmədiyi barədə danışıb. Qeyd edib ki, Ermənistan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə əngəllər törədir.

Hazırda bizim ən müasir silahlarla təchiz olunmuş ordumuz var. Azərbaycan gündən-günə inkişaf edir və güclənir. Ölkəmiz güclədikcə Dağlıq Qarabağ münaqişəsinin həlli də yaxınlaşır.

Ziyafət Əsgərov gənclərə yaxşı təhsil almaq, fəal vətəndaş mövqeyi nümayiş etdirmək, müasir dünya siyasətinə və sosial şəbəkələrdə gedən təbliğata ayıq gözlə baxmaq, işğalçı Ermənistanın Azərbaycan əleyhinə apardığı çirkin təbliğat kampaniyasına tutarlı cavablar verməklə bağlı tövsiyələrini də çatdırıb.

"Dəyirmi masa"da gənclərin düşüncə və təklifləri dinlənilib, onları maraqlandıran suallar cavablandırılıb.

# Kiyevdə mütəfəkkir-şair İmadəddin Nəsiminin heykəlinin rəsmi açılış mərasimi keçirilib





Ukraynanın paytaxtı Kiyev şəhərində Azərbaycan xalqının çoxəsrlik ənənələrə malik bədii və fəlsəfi fikrində dərin iz qoymuş mütəfəkkir-şair İmadəddin Nəsiminin heykəlinin rəsmi açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Ukraynadakı səfirliyinin sifarişi ilə Kiyevdə mərkəzi parkların birində ucaldılan İmadəddin Nəsiminin heykəlinin açılış mərasimində Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, Kiyev şəhər meri Vitali Kliçko, diplomatik korpusların nümayəndələri, soydaşlarımız, şəhər sakinləri və yerli KİV təmsilçiləri iştirak ediblər.

Tədbir Azərbaycan və Ukraynanın Dövlət himnlərinin səsləndirilməsi ilə başlayıb. İlk öncə tədbirin aparıcısı İmadəddin Nəsiminin yaradıcılığı haqqında geniş məlumat verdikdən sonra Kiyev şəhər meri Vitali Kliçko çıxışına mütəfəkkir-şairimizin sitatları ilə başlayıb. O bildirib ki, Kiyevin mərkəzi hissəsində Nəsimi kimi tanınmış bir şəxsin heykəlinin ucaldılması sevindirici haldır. "Çox sevinirəm ki, Ukraynanın paytaxtında Azərbaycan xalqının böyük oğlunun heykəli açılıb. Bu, bir daha Ukrayna və Azərbaycan xalqlarının bir-birinə verdiyi dəyərin nəticəsidir. Hər iki ölkənin Dövlət himnləri səslənəndə, ukraynalı və azərbaycanlılar əllərini ürəklərinin başına qoydu. Bu onu göstərir ki, hər bir azərbaycanlı Ukraynanı, hər bir ukraynalı isə Azərbaycanı öz evi kimi qəbul edir", - deyə Kliçko əlavə edib.

Hələ ümummilli lider Heydər Əliyevin Azərbaycan və Ukrayna arasında əməkdaşlığın inkişafına böyük töhfə verdiyini vurğulayan Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov bildirib ki, bu gün bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

"Bakıda Şevçenko, Kiyevdə ulu öndər Heydər Əliyev, Müslüm Maqomayev və indi də İmadəddin Nəsiminin heykəlinin ucaldılması hər iki ölkə arasında dost, qardaş münasibətlərin bariz nümunəsidir", - deyə E.Əzizov əlavə edib.

O qeyd edib ki, Azərbaycan və Ukrayna arasında strateji münasibətlər bundan sonra da davam etdiriləcəkdir.

Heykəlin müəllifi Ukraynanın xalq rəssamı, tanınmış heykəltəraş, həmyerlimiz Seyfəddin Qurbanov isə çıxışında heykəlin hazırlanmasında göstərdiyi təşəbbüs və köməyə görə səfir Azər Xudiyevə təşəkkürünü bildirib. İmadəddin Nəsimi kimi dahi bir şəxsiyyətin heykəlinin müəllifi olmasından qürur hissi keçirdiyini vurğulayıb.

İmadəddin Nəsiminin heykəlinin açılış mərasimində iştirak etdiklərinə görə, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı və Kiyev merinə təşəkkürünü bildirən səfir Azər Xudiyev deyib ki, Prezident İlham Əliyevin sərəncamı ilə 2019-cu il ölkəmizdə "Nəsimi ili"nin elan edilməsi çərçivəsində bir sıra kütləvi tədbirlər keçirilir. Səfirin sözlərinə görə, İmadəddin Nəsiminin heykəlinin ucaldılması Azərbaycanı dünyada daha da tanıdacaqdır.

Daha sonra şair Şəhriyar Der Gerani İmadəddin Nəsiminin qəzəllərini səsləndirib. Bundan sonra Nəsiminin heykəlinin üzərindəki ağ örpək açılıb.

Xatırladaq ki, heykəl Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə 2019-cu ilin ölkəmizdə "Nəsimi ili"nin elan edilməsi çərçivəsində ucaldılıb.

# Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət təkmilləşdirilir

Milli Məclisin Regional məsələlər komitəsinin mayın 24-də keçirilən iclasında "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" və "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" qanun layihəsi müzakirə edildi.

Komitənin sədri Arif Rəhimzadə "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" qanuna təklif olunan dəyişiklikləri diqqətə çatdırdı. Qeyd etdi ki, qanunun 8 maddəsinə 15 düzəlişin edilməsi nəzərdə tutulur. Təklif edilən dəyişikliklərin məqsədi "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun icrasının təmin edilməsindən ibarətdir. Eyni zamanda dəyişikliklər bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin daha da təkmilləşdirilməsinə yol açacaq.

Müzakirələr zamanı deputatlardan Fəzail İbrahimli, Tahir Rzayev, Azər Badamov, Kamran Bayramov və bələdiyyə nümayəndələri layihə ilə bağlı fikirlərini bildirdilər. Çıxışlarda bələdiyyələrin fəaliyyəti ilə bağlı təkliflər də diqqətə çatdırıldı.

Yekunda qanun layihəsi Milli Məclisin plenar iclasının müzakirəsinə tövsiyə edildi.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul ediblər

Mayın 24-də təhsil naziri Ceyhun Bayramov Ağstafa şəhərindəki Heydər Əliyev Mərkəzində Ağstafa və Qazax rayon sakinlərini qəbul edib.

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2019-cu ilin may ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq keçirilən qəbulda qeyd olunan rayonlarda müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak ediblər.

Nazir vətəndaşların müraciət və təkliflərini diqqətlə dinləyib, hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin aidiyyəti qurumlarının rəhbərlərinə konkret tapşırıqlar verib.

Nazir Ceyhun Bayramov, həmçinin Tovuz rayonunda yerləşən Qovlar şəhər inteqrasiya təlimli internat tipli gimnaziyada olub. O, təhsil müəssisəsinin tədris və şagirdlərin yaşayış şəraiti ilə tanış olub, sinif otaqlarını gəzib, şagird və müəllimlərlə söhbət edib.

Təhsil nazirinin müavini Firudin Qurbanov da Şəmkir şəhərindəki Heydər Əliyev Mərkəzində Şəmkir və Gədəbəy rayon sakinlərini, həmin rayonlarda müvəqqəti məskunlaşmış məcburi köçkünləri qəbul edib.

Qəbula gələn vətəndaşların müraciətləri dinlənilib. Bir sıra müraciətlərlə bağlı konkret tapşırıqlar verilib.

* * *

Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Rəhimov mayın 24-də Masallı rayonunda Masallı, Cəlilabad, Yardımlı rayonlarından olan vətəndaşları qəbul edib.

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, 10-dan çox vətəndaşın iştirak etdiyi qəbulda müraciətlərin əksər hissəsi gənclər və idman sahəsi ilə bağlı olub. Digər müraciətlər isə Olimpiya İdman komplekslərinin, Gənclər evlərinin, eyni zamanda, digər idman qurğularının tikintisi və təmiri, onların idman avadanlığı ilə təmin olunması, yeni uşaq-gənclər idman məktəblərinin, qeyri-hökumət təşkilatlarının yaradılması, fəxri adların və məşqçilik dərəcələrinin verilməsi ilə bağlı olub.

Bir sıra müraciətlər yerindəcə həllini tapıb. Nazirliyin səlahiyyətlərinə aid olmayan müraciətlərin isə qeydə alınaraq aidiyyəti üzrə göndəriləcəyi bildirilib. Müraciətlərin bir qismi isə baxılması üçün icraya yönəldilib.

* * *

Mayın 24-də mədəniyyət naziri Əbülfəs Qarayev Şamaxı rayon Heydər Əliyev Mərkəzində Şamaxı və Qobustan rayonlarından olan vətəndaşları qəbul edib.

Mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev İsmayıllı rayon Heydər Əliyev Mərkəzində İsmayıllı və Qəbələ rayonlarından, nazir müavini Rafiq Bayramov isə Ağsu rayon Heydər Əliyev Mərkəzində Ağsu rayonundan olan vətəndaşlarla görüşüblər.

Nazir Əbülfəs Qarayevin iştirak etdiyi qəbulda vətəndaşlar tərəfindən Şamaxı rayonunda aşıq Məmmədağa Babayevin büstünün ucaldılması, Şamaxı Tarix-Diyarşünaslıq Muzeyinin nəzdində "Şəxsiyyətlər muzeyi"nin yaradılması, "Yeddi günbəz" kompleksinin bərpa olunması, Sündü kəndində olan mağaraya inventar nömrəsinin, Şirvan folklor kollektivinə "xalq kollektivi" adının verilməsi ilə bağlı müraciətlər edilib. Həmçinin Qobustan rayon Rəşid Behbudov adına Musiqi məktəbi üçün konsert zalının tikilməsi, Şamaxıda səsyazma studiyasının yaradılması, Dəmirçi Arxeologiya Muzeyinin nazirliyin balansına verilməsi, fəxri adlar, işlə təmin olunma və digər məsələlərlə bağlı müraciət də səslənib.

* * *

Nazirin birinci müavini Vaqif Əliyevin keçirdiyi qəbulda İsmayıllı və Qəbələ rayonlarından olan vətəndaşların müraciətləri xalq teatrlarının rejissorları üçün paytaxt teatrlarında praktiki məşğələlərin təşkili, Qəbələ rayon Heydər Əliyev Mərkəzinin yeni eksponatlarla təchizatı, İsmayıllı Rayon Tarix-Diyarşünaslıq Muzeyinin nazirliyin balansına verilməsi, Qəbələ Dövlət Rəsm Qalereyası üçün inzibati binanın tikilməsi, rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminə yeni kitabların verilməsi, "Lahıc" xalq kollektivinə ştat vahidlərinin ayrılması barədə olub.

* * *

Nazir müavini Rafiq Bayramovun iştirak etdiyi qəbulda Ağsu rayon sakinləri tərəfindən ölkədəki Heydər Əliyev mərkəzlərinə tanışlıq turlarının təşkili, Ağsu Uşaq Musiqi Məktəbinin incəsənət məktəbinə çevrilməsi, məktəb üçün yeni binanın tikilməsi, Tarix-Diyarşünaslıq Muzeyinin təmiri və ekspozisiyasının yenidən qurulması və digər məsələlər barədə müraciətlər edilib.

* * *

Mədəniyyət Nazirliyinin aidiyyəti struktur bölmələri nümayəndələrinin iştirakı ilə keçirilən qəbullarda vətəndaşlar diqqətlə dinlənilib, qaldırılan məsələlərin böyük əksəriyyəti yerindəcə həll edilib, digər müraciətlərin operativ araşdırılması və qanunvericiliyə uyğun həlli üçün müvafiq tapşırıqlar verilib. Ümumilikdə qəbullarda 50 nəfərdən çox vətəndaşın müraciətinə baxılıb.

* * *

Baş prokuror Zakir Qaralov mayın 24-də Gəncə Şəhər Prokurorluğunun inzibati binasında Gəncə şəhərindən, Samux və Göygöl rayonlarından olan vətəndaşları qəbul edib.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Zakir Qaralov bölgədə yaşayan 44 vətəndaşın müraciətini dinləyib. Qaldırılan məsələlərin qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verilib.

Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb. Digər müraciətlər isə araşdırılması üçün nəzarətə götürülüb.

* * *

Ayın 24-də Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi (AAYDA) İdarə Heyətinin sədri Saleh Məmmədov Tərtərdə vətəndaşlarla görüşüb.

Gənclər Mərkəzində keçirilən qəbulda Tərtər və Bərdə rayonlarından olan vətəndaşların müraciətləri dinlənilib. Müraciətlər əsasən kəndlərarası avtomobil yollarının təmir-bərpası və yenidən qurulması, işə qəbul və digər məsələlərlə bağlı olub.

Qəbul zamanı hər bir vətəndaşın müraciəti AAYDA İdarə Heyətinin sədri Saleh Məmmədov tərəfindən diqqətlə dinlənilib, qaldırılan məsələlərin bir qismi yerində öz həllini tapıb, digər müraciətlər üzrə agentliyin aidiyyəti struktur bölmələrinin rəhbərlərinə müvafiq tapşırıqlar verilib. Araşdırılmasına ehtiyac olan müraciətlər nəzarətə götürülüb.

Eyni zamanda, agentliyin İdarə Heyəti sədrinin müavini Əvəz Qocayev Goranboy rayonunda vətəndaşların müraciətlərini dinləyib.

* * *

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova mayın 24-də Cəlilabad rayonunda vətəndaşların qəbulunu keçirib.

Qəbulda Masallı, Cəlilabad rayonundan olan sakinlər iştirak ediblər. Qəbulda sağlamlıq imkanları məhdud uşaqların müalicəsi, erkən nikah və boşanmalardan yaranan problemlərə, imkansız ailələrin müvafiq istiqamətdə təminatı, övladlığa verilmə, uşaq hüquqlarının müdafiəsi, məişət zorakılığına məruz qalma və s. kimi məsələlərə baxılıb.

Qəbulda vətəndaşların Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin səlahiyyət dairəsinə aid məsələlərə dair müraciətləri komitənin müvafiq struktur bölmələrinin məsul şəxslərinin iştirakı ilə araşdırılaraq cavablandırılıb və aidiyyəti üzrə tədbirlər görülüb.

* * *

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova mayın 24-də Biləsuvar rayonunda vətəndaşların qəbulunu keçirib.

Qəbulda Cəbrayıl, Biləsuvar rayonlarından olan sakinlər iştirak ediblər. Qəbulda sağlamlıq imkanları məhdud uşaqların müalicəsi, erkən nikah və boşanmalardan yaranan problemlərə, imkansız ailələrin müvafiq istiqamətdə təminatı, övladlığa verilmə, uşaq hüquqlarının müdafiəsi, məişət zorakılığına məruz qalma və s. kimi məsələlərə baxılıb.

Qəbulda vətəndaşların Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin səlahiyyət dairəsinə aid məsələlərə dair müraciətləri komitənin müvafiq struktur bölmələrinin məsul şəxslərinin iştirakı ilə araşdırılaraq cavablandırılıb və aidiyyəti üzrə tədbirlər görülüb.

***AZƏRTAC***

# "SÖZ" layihəsi yeni təqdimatda





Mayın 24-də "Art Gallery Hotel"də ölkəmizdə çox populyar olan "SÖZ" layihəsinin yeni istiqamətinin təqdimatı keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva da iştirak edib.

Layihənin direktoru Nigar Həsənzadə "SÖZ" ədəbi layihəsinə göstərdiyi dəstəyə görə Leyla Əliyevaya minnətdarlığını bildirib. O deyib ki, özünü təsdiqləmiş ədəbi layihə bu dəfə qonaq və iştirakçılar qismində yalnız gənc müəllifləri toplayıb. Bu yeni konsepsiya məhz onlar üçün hazırlanıb. Bu konsepsiyanın "SÖZ" layihəsinin əsas fəaliyyətindən fərqi yalnız ədəbi axşamların təşkili deyil, həm də onların inkişafı və birləşməsi üçün şəraitin yaradılmasındadır.



Yeni konsepsiya barədə danışan N.Həsənzadə deyib ki, bu, gənc müəlliflər üçün "açıq qapılar"ın keçirilməsini nəzərdə tutur, gənc qələm əhlinə dostlar, həmkarlar və layihələrin rəhbərləri ilə görüşmək, faydalı məlumatları bölüşmək, onları maraqlandıran sualları vermək və ayda iki dəfə rahat və müasir "Art Gallery Hotel" kafesində dostlara yeni əsərlərini oxumaq imkanı verir. Bu günlərdə "Sattart Cafe" öz qonaqlarına pulsuz xidmət göstərəcək.

Layihənin direktoru bildirib ki, "SÖZ" layihəsinin məqsədi həm yerli, həm də xarici dillərdə yazıb-yaradan istedadlı gəncləri birləşdirərək ölkədə yeni yaradıcı ziyalıların yaranmasına kömək etməkdir. Nigar Həsənzadə deyib: "Biz öz bacarıqlarına inanan bütün gənc müəllifləri, yazıb-yaradan istedadları "SÖZ" adlı ailənin bir üzvü olmağa dəvət edirik, layihənin inkişafı və tərəqqisində fəal iştirak etməyə çağırırıq. Bizim "SÖZ" adlı ailəmiz yarandığı gündən artıq 3 ildir ki, Azərbaycan bədii ədəbiyyatının dəstəklənməsi və inkişafına mühüm töhfələr verməklə yanaşı, layihəmizdə iştirak edən bir çox gəncin taleyini müsbətə doğru dəyişməyə müvəffəq olub".

Sonra gənc şairlər öz şeirlərini oxuyublar.

Tədbirdə Leyla Əliyeva müəllifi olduğu şeirləri oxuyub.

Gecəyə Nigar Həsənzadənin səsləndirdiyi poeziya nümunəsi ilə yekun vurulub.

Sonda gənc yazarlar öz kitablarını Leyla Əliyevaya təqdim edib, onunla xatirə şəkli çəkdiriblər.

# Füyuzat Mərkəzinin açılışı olub




Bakı Dövlət Universitetinin (BDU) 100 illik yubileyi münasibətilə Jurnalistika fakültəsində Füyuzat Mərkəzinin açılış mərasimi olub.

BDU-dan AZƏRTAC-a bildiriblər ki, mərasimdə bu ali məktəbin Elm və innovasiyalar üzrə prorektoru, professor Aydın Kazımzadə universitet və Milli İrsi Mədəni Tarixi Araşdırmalar Fondunun (MİMTA) birgə layihəsi əsasında qurulan Füyuzat Mərkəzinin tələbə və müəllimlər üçün yaradacağı imkanlardan danışıb. Gənc nəslin intellektual və mənəvi inkişafının təmin edilməsinin, ictimai fəallığının artırılmasının dövlətin daim diqqət mərkəzində olduğunu vurğulayan A.Kazımzadə tələbələrin yüksəkixtisaslı mütəxəssis kimi formalaşması, onların sürətlə dəyişən əmək bazarında rəqabətədavamlı olmaları üçün belə mərkəzlərin yaradılmasının əhəmiyyətini qeyd edib.

Füyuzat Mərkəzinin əsas məqsədinin xalqımızın milli-mənəvi dəyərlərini, irsini, mədəniyyətini qoruyub saxlamaq və inkişaf etdirmək, tələbələrin bilik və bacarıqlarını artırmaq, istedadlı gənclərin inkişafına yardım göstərmək olduğunu deyən A.Kazımzadə qurumun Azərbaycan mediasının inkişafı naminə peşəkar jurnalistlərin hazırlanması istiqamətində səmərəli fəaliyyət göstərəcəyinə əminliyini ifadə edib.

"Respublika" qəzetinin və "Füyuzat" jurnalının baş redaktoru, professor Teymur Əhmədov mərkəzin fəaliyyətə başlamasını əlamətdar hadisə adlandırıb. Bildirilib ki, mərkəz, eyni zamanda, BDU-nun tələbə və magistrantlarının MİMTA-da təcrübə keçməsi və işə cəlb olunması məsələlərini diqqətdə saxlayacaq.

MİMTA Fondunun icraçı direktoru Pərviz Əmirov mərkəzin fond üçün önəmi və qarşıda duran vəzifələri haqqında fikirlərini bölüşüb.

Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev mərkəzin tələbələrin inkişafına böyük töhfələr verəcəyinə əminliyini bildirib. Qeyd edilib ki, Füyuzat Mərkəzinin fəaliyyət planında Azərbaycan mətbuatı tarixinin öyrənilməsi, maarifləndirici tədbirlərin, BDU müəllimlərinin mühazirələrinin təşkili, MİMTA Fondu əməkdaşlarının müxtəlif mövzular üzrə təlimlərinin keçirilməsi nəzərdə tutulur.

Mərkəzin əlaqələndiricisi Afaq Sadıqova mərkəzdə onlayn media, nəşriyyat-poliqrafiya işləri ilə bağlı dərnək və kursların qurulması, "Füyuzat" və "İşıq" jurnallarının yazarları, eləcə də elm, təhsil, mədəniyyət, incəsənət, ədəbiyyat sahəsində xidmətləri olan ziyalılarla tələbələr arasında görüşlərin keçirilməsinin də yer alacağına diqqət çəkib.

Azərbaycan Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov, filologiya üzrə fəlsəfə doktoru, "Ədəbiyyat qəzeti"nin baş redaktoru Azər Turan, şərqşünas alim Allahşükür Qurbanov, BDU-nun Jurnalistika fakültəsinin kafedra müdiri, professor Cahangir Məmmədli, "Füyuzat" jurnalının məsul katibi Mübariz Yunus və digər çıxış edənlər Füyuzat Mərkəzinin fəaliyyətinə uğurlar arzulayıblar.

Qeyd edək ki, MİMTA Fondu və BDU-nun anlaşma layihəsi əsasında təşkil olunmuş mərkəzin qurulmasına 2017-ci ildə - "Füyuzat" jurnalının 110 illiyi ərəfəsində başlanılıb.

# "Şəhər ekologiyası" layihəsi uğurla davam edir





Mayın 24-də IDEA İctimai Birliyinin "Şəhər ekologiyası" layihəsi çərçivəsində ADA Universitetinin kampusunda mövcud olan yaşıllıq sahəsinə sincablar buraxılıb. "Şəhər ekologiyası" layihəsi şəhər mühitinə xas olan və keçmişdə geniş yayılmış fauna növlərinin qorunmasına və qaytarılmasına yönəlib.

Sincablar üçün əlverişli yaşam şəraitinin olduğu kampus ərazisinə ilkin olaraq 25 sincab buraxılıb.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva tədbirdə iştirak edib.



Sincabların məhz bu əraziyə buraxılmasında digər məqsəd onların şam ağaclarının çoxluq təşkil etdiyi yeni Zooloji Parkın ərazisinə və Dədə Qorqud Parkına keçərək təbii şəkildə çoxalmasıdır.

Məlum olduğu kimi, vəhşi təbiətin qorunub saxlanılması üzrə çoxşaxəli səylərlə yanaşı, Leyla Əliyevanın təşəbbüsü ilə şəhər mühitinə aid olan növlərin mühafizəsi istiqamətində də geniş tədbirlər həyata keçirilir. Bu xüsusda, Bakıda fəaliyyəti küçə heyvanlarının qorunmasına yönəlmiş IDEA Heyvanlara Qayğı Mərkəzi yaradılıb, şəhərboyu pişiklər üçün xüsusi evciklər qurulur, IDEA quş yuvaları asılır və digər bir sıra işlər aparılır. "Şəhər ekologiyası" layihəsi Bakı və onun ətrafındakı ictimai yerlərin şəhər mühitində rahat yaşayıb çoxala bilən heyvan və quş növləri ilə zənginləşdirilməsi, eləcə də bu növlərin qorunub saxlanılması istiqamətində ardıcıl tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. Bütün bu səylərin əsas məqsədi şəhərdə yaşayan insanlarla ətraf mühit arasında ahəngin yaradılmasından, daha sıx və daha sağlam əlaqənin möhkəmləndirilməsindən ibarətdir.

Keçmişdə Bakı şəhəri ərazisində çoxsaylı sincab və tutuquşular məskunlaşıb və onlar parklarda, yaşıllıqlar mövcud olan digər ərazilərdə insanlar arasında sərbəst dolaşıb. Lakin ötən əsrin sonlarında mövcud olan ekoloji problemlər səbəbindən bu növlərin sayı kəskin azalmışdı. Son illər ölkədə aparılan geniş yaşıllaşdırma və abadlaşdırma işləri, xüsusən də IDEA İctimai Birliyinin səyləri sayəsində Bakıda qanunsuz ağac kəsilməsi hallarının azaldılması və saysız-hesabsız yeni ağacların əkilməsi nəticəsində şəhərdə bir çox fauna növlərinin qaytarılması üçün münbit şərait yaradılıb. Layihə çərçivəsində kampusun ərazisinə buraxılan sincablar şam ağaclarının çoxluq təşkil etdiyi Dədə Qorqud Parkına və yeni Zooloji Parkın ərazisinə də keçərək təbii şəkildə çoxalacaq.

IDEA İctimai Birliyi hər kəsi şəhər mühitində yaşaya bilən fauna növlərimizin sayını bərpa etmək prosesinə dəstək verməyə, heyvanlara qarşı qayğıkeş olmağa, onlara yeni yaşam mühitinə adaptasiya dövründə həssaslıqla yanaşmağa çağırır.

# UEFA Avropa Liqasının final matçı ilə əlaqədar azarkeşlər üçün videobələdçi yayımlanıb

Mayın 24-də UEFA və AFFA Avropa Liqasının Bakıda keçiriləcək final qarşılaşması ilə əlaqədar azarkeşlər üçün videobələdçi yayımlanıb.

AZƏRTAC xəbər verir ki, videobələdçidə oyunu stadionda izləyəcək azarkeşlər üçün zəruri məlumatlar təqdim edilib.

Qeyd olunub ki, elektron qaydada alınmış biletlərin qarşılaşmaya bir həftə qalmış telefonlara göndərilməsinə başlanılıb. Biletləri qəbul etmək üçün uefa.com saytından xüsusi tətbiq telefonlara yüklənməlidir. Telefonlar IOS və Android əməliyyat sistemlərini dəstəkləməlidir. Oyun günü bütün biletlər təhlükəsizlik yoxlanışında aktivləşdiriləcək. Buna görə də telefonun enerji ilə dolu olduğuna diqqət yetirmək lazımdır. Stadiona yaxınlaşarkən mobil telefonların "bluetooth" funksiyasını aktivləşdirmək tələb edilir. Fiziki biletləri olan şəxslər biletləri təhlükəsiz yerdə saxlamalı və stadiona yaxınlaşan zaman yoxlanış üçün hazır etməlidirlər. Nəzərə almaq lazımdır ki, oyun günü stadionda bilet satışı həyata keçirilməyəcək və stadiona biletsiz giriş mümkün olmayacaq.

Çarxda diqqətə çatdırılıb ki, bilet almış azarkeşlər final qarşılaşması günü Bakı Olimpiya Stadionuna və əks istiqamətə iki ekspress marşrut üzrə hərəkət edəcək avtobuslarla daşınacaqlar. Avtobuslar X1 marşrut xətti üzrə metronun "Qara Qarayev", X2 marşrut xətti üzrə isə "28 May" stansiyalarından hərəkət edəcəklər. Üç dəqiqə intervalla hərəkət edəcək avtobuslar saat 18:30-dan 23:00-dək işləyəcək. Azarkeşlər metro vasitəsilə "Koroğlu" stansiyasından da stadiona gələ biləcəklər. Stadiona şəxsi nəqliyyat vasitələri ilə gəlmək istəyən şəxslər xüsusi buraxılış kartını təqdim etməlidirlər. Oyun başa çatdıqdan sonra ekspress avtobuslar və metro azarkeşləri əks istiqamətə daşıyacaq.

Videobələdçidə bildirilib ki, oyun günü stadionun qapıları saat 20:00-da açılacaq. Arenanın 1-11-ci qapıları arasındakı oturacaqlara bileti olan şəxslərin ekspress avtobuslarla gəlib arenaya "Şimal" girişindən daxil olmaları tövsiyə edilir. Oturacaqları 12-22-ci qapılar arasında olan azarkeşlərin metrodan istifadə edərək stadiona "Cənub" girişindən gəlmələri daha rahat olacaq.

Bütün girişlərdə təhlükəsizlik məntəqələri fəaliyyət göstərəcək. Təhlükəsizlik təlimatlarına ciddi əməl etmək xahiş olunur. Stadiona çanta ilə gəlmək qadağandır. Qadağan edilmiş əşyaların tam siyahısı ilə Bakı Olimpiya Stadionunun bos.az saytından tanış olmaq mümkündür. Tamaşaçı qapıları açıldıqdan sonra stadionun daxilində qida və içki məntəqələri fəaliyyət göstərəcək.

Qeyd edilib ki, arenaya giriş yalnız etibarlı biletlərlə mümkündür. Yaşından asılı olmayaraq, hər bir kəsin stadiona girişi üçün etibarlı matç bileti olmalıdır. Biletləri stadiondan almaq mümkün deyil. Bilet sahibi turniketi keçdikdən sonra yenidən qayıdarsa, onun stadiona təkrar daxil olmasına icazə verilməyəcək.

Xatırladaq ki, UEFA Avropa Liqasının mayın 29-da Bakı Olimpiya Stadionunda keçiriləcək final qarşılaşmasında Londonun "Arsenal" və "Çelsi" komandaları üz-üzə gələcəklər. Matç saat 23:00-da başlayacaq.

# Bakı Media Mərkəzi Beynəlxalq Velosipedçilər İttifaqı ilə əməkdaşlığı davam etdirir

Bakı Media Mərkəzi Beynəlxalq Velosipedçilər İttifaqı (UCI) ilə əməkdaşlığı uğurla davam etdirir.





Mərkəzdən AZƏRTAC-a bildiriblər ki, baş ofisi İsveçrənin Aiqle şəhərində yerləşən UCI ilə əldə olunan razılığa əsasən, Bakı Media Mərkəzi 2020-ci ilin sonuna qədər İttifaqın velosiped idmanının "BMX Supercroos" növü üzrə təşkil olunan dünya super kuboku üçün nəzərdə tutulmuş zəruri yayım xidmətlərini həyata keçirəcək. Bu kubokların promo video çəkilişlərini də Bakı Media Mərkəzi aparacaq.

Beynəlxalq Velosiped İttifaqının "BMX Supercroos" dünya kuboku növü üzrə təşkil etdiyi çempionat turu qlobal xarakter daşıyır. 2020-ci ildə Tokioda keçiriləcək Yay Olimpiya Oyunlarına qədər bu yarışlar iki il ərzində Böyük Britaniya, Hollandiya, Fransa, ABŞ, Argentina və Avstraliyada təşkil olunacaq.

Bu ilin iyununda Fransa Velosiped Federasiyası tərəfindən təşkil edilən Fransa milli çempionatının canlı yayımını da Bakı Media Mərkəzi həyata keçirəcək.

Bakı Media Mərkəzinin icraçı prodüseri Tahir Əliyev "BMX Supercroos" üzrə turların Olimpiya Oyunlarına seçmə mərhələ xarakteri daşıyan yeganə elit yarış olduğunu xatırladaraq deyib: "Biz Bakı Media Mərkəzi olaraq, Beynəlxalq Velosipedçilər İttifaqının bu cür nüfuzlu yarışına cəlb olunmağımızdan qürur duyuruq. Şirkət UCI ilə bağlanmış müqaviləyə uyğun olaraq, yüksək keyfiyyətli çəkiliş məhsulu təqdim edəcək. Ümid edirik ki, bu, həm də bizim Beynəlxalq Velosipedçilər İttifaqı ilə uzunmüddətli əməkdaşlığımızın başlanğıcı olacaq".

Bakı Media Mərkəzi Azərbaycanın beynəlxalq tədbirlərdən və idman yarışlarından çəkiliş və yayım təcrübəsi olan ilk innovativ şirkətidir. Şirkət 2015-ci ildə ölkəmizdə keçirilən ilk Avropa Oyunlarının çəkilişlərinə cəlb edilib, "Tour D'Azerbaijan" və IV İslam Həmrəyliyi Oyunları da daxil olmaqla, bir çox nüfuzlu idman yarışlarının çəkilişlərində iştirak edib. Bakı Media Mərkəzi 2018-ci ildə isə Azərbaycan Velosiped İdman Federasiyası tərəfindən təşkil olunan Beynəlxalq Velosipedçilər İttifaqının BMX növü üzrə dünya çempionatına yayım xidmətləri göstərib. Mərkəz həm də audio-vizual məhsulların istehsalı sahəsində geniş çeşiddə xidmətlər göstərən çoxfunksiyalı şirkətdir.

Qeyd edək ki, mayın 29-da Bakı Olimpiya Stadionunda təşkil ediləcək UEFA Avropa Liqasının final oyununun canlı yayım çəkilişlərini də Bakı Media Mərkəzi Britaniyanın tanınmış "BT Sport" şirkəti ilə birgə həyata keçirəcək.

*Gürcüstan MOK-un prezidenti:*

# "Azərbaycan dünyanın ən təhlükəsiz ölkələrindən biridir"



"Azərbaycan bu gün təkcə Cənubi Qafqaz regionunda deyil, dünyada idman ölkəsi kimi tanınır. Bakı artıq beynəlxalq idman yarışlarının keçirildiyi məkana çevrilib".

Bu fikirləri AZƏRTAC-a müsahibəsində Gürcüstan Milli Olimpiya Komitəsinin (MOK) prezidenti, sərbəst güləş üzrə beşqat dünya çempionu, olimpiya oyunları çempionu Leri Xabelov söyləyib.

O deyib: "Azərbaycanda idmana dövlət səviyyəsində çox yüksək diqqət göstərilir. Bu da ölkədə idmanın inkişafında, normal cəmiyyətin və sağlam gəncliyin formalaşmasında mühüm rol oynayır. Mən çox şadam ki, dost və qardaş Azərbaycan bu gün idman ölkəsi kimi tanınır. İkiqat sevincim isə onunla bağlıdır ki, Bakı UEFA Avropa Liqasının final qarşılaşmasına evsahibliyi edəcək".

Gürcüstan MOK-un prezidenti son vaxtlar bəzi insanların Azərbaycanı tənqid etməsini pisləyib və bunun paxıllıq hissindən irəli gəldiyini söyləyib: "Bəzi qüvvələr zaman-zaman Azərbaycanın və Gürcüstanın əleyhinə qarayaxma kampaniyaları aparırlar. Onların bu cəhdləri hər zaman olduğu kimi, bu dəfə də boşa çıxdı. Azərbaycan dünyanın ən təhlükəsiz ölkələrindən biridir və biz idman ictimaiyyətinin nümayəndələri buna şahidik".

# Bakıda “Caspian Power” İdman Festivalının təntənəli açılış mərasimi olub





Mayın 24-də Heydər Əliyev adına İdman Sarayında “Caspian Power” İdman Festivalının təntənəli açılış mərasimi olub.

AZƏRTAC xəbər verir ki, ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş festivalda əvvəlcə Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

Mərasimdə çıxış edən Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə ölkəmizdə idmana göstərilən dövlət qayğısından danışıb, atletlərimizin beynəlxalq arenada yüksək nailiyyətlər qazandıqlarını bildirib. Ç.Hüseynzadə vurğulayıb ki, ölkəmizdə Olimpiya idman növləri ilə yanaşı, qeyri-Olimpiya idman növlərinin də inkişafına geniş imkanlar yaradılır. Bu gün təşkil olunan yarış bunun bariz nümunəsidir. Azərbaycan irimiqyaslı yarışlara yüksək səviyyədə evsahibliyi edir. Festivalla eyni vaxtda paytaxtımızda aerobika gimnastikası üzrə Avropa çempionatı keçirilir. Bundan əlavə, iyulda Bakı Avropa Gənclər XV Yay Olimpiya Festivalına evsahibliyi edəcək. Bütün bunlar ölkəmizdə həyata keçirilən uğurlu idman siyasətinin göstəricisidir.

Festivalın əhəmiyyətini yüksək qiymətləndirən Ç.Hüseynzadə iştirakçılara uğurlar arzulayıb.

Gənclər və İdman Nazirliyinin idman şöbəsinin müdiri Fərid Mansurov Azərbaycanın dünyada idman ölkəsi kimi tanındığını deyib. Bildirib ki, ölkəmiz yüksək təşkilatçılıq bacarığı ilə seçilir. Bakıda ilk Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları və “Formula-1” yarışları yüksək səviyyədə təşkil olunub. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan idman siyasəti hazırda dövlət başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Açılış mərasimində Milli Olimpiya Komitəsinin baş katibinin müavini Azər Əliyev, kikboksinq üzrə dəfələrlə dünya və Avropa çempionu Zabit Səmədov, Fövqəladə Hallar Nazirliyinin İdman-sağlamlıq klubunun rəisi Füzuli Musayev və idman ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Stronqmen, bodibildinq, mas-restlinq, cui-citsu və sumo üzrə yarışların keçirildiyi festivalda 100-dək idmançı birincilik uğrunda mübarizə aparır.

“Caspian Power” İdman Festivalının keçirilməsində məqsəd bütün idman növləri üzrə yarışları bir idman turniri çərçivəsində keçirməklə idmanın kütləviliyini artırmaqdır. Festivala idman ləvazimatlarının və qidalarının istehsalı və satışı ilə məşğul olan şirkətlər də dəvət olunub. Belə ki, festival çərçivəsində onlar xüsusi stendlərdə öz məhsullarını nümayiş etdirirlər.

# Bakıda aerobika üzrə XI Avropa çempionatının açılış mərasimi keçirilib








Mayın 24-də Milli Gimnastika Arenasında aerobika üzrə XI Avropa çempionatının açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə iştirakçı ölkələrin bayraqları arenaya gətirilib.

Avropa çempionatının açılış mərasimində çıxış edən Avropa Gimnastika İttifaqının (UEG) prezidenti Fərid Qayıbov aerobika gimnastikası üzrə Avropa çempionatının ölkəmizdə ilk dəfə keçirildiyini vurğulayaraq deyib: “Təxminən bir həftə əvvəl Bakı bədii gimnastika üzrə 35-ci Avropa çempionatına uğurla evsahibliyi etdi. Qitə çempionatında təşkilatçılıq yüksək səviyyədədir. Buna görə Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban xanım Əliyevaya, Təşkilat Komitəsinin bütün üzvlərinə, könüllülərə, gimnastika azarkeşlərinə təşəkkür edirəm”.

Sonra Fərid Qayıbov yarışları açıq elan edib.

Mərasimdə Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib. Üç gün davam edəcək çempionatda 22 ölkədən 400-ə yaxın böyük və gənc gimnast fərdi, qarışıq cütlük, üçlük, qrup, həmçinin aerodans, aerostep (yalnız böyüklər) proqramında yarışacaq.

Azərbaycanı böyüklərin yarışında Elçin Məmmədov, Mədinə Mustafayeva, Ayxan Əhmədli, Balaxanım Əhmədova, Vladimir Dolmatov, Emil Quliyev, Xoşqədəm Quliyeva, Nərminə Hüseynova, İmran İmranov, Nigar İbrahimbəyli, Akif Kərimli, gənclərin yarışında isə Aysel Aslanzadə, Xədicə Quliyeva, Lalə Quliyeva, Fatimə Qurbanova, Emiliya Mahmudova və Eleonora Yusifova təmsil edirlər.

Yarışın birinci günündə gənc gimnastlar mübarizə aparıblar. Ertəsi gün isə qitə çempionluğu uğrunda mübarizəyə böyük aerobika gimnastları qatılacaqlar. Çempionatın sonuncu günündə isə finallar keçiriləcək və Avropa çempionları müəyyənləşəcək.

# UEFA Avropa Liqasının Bakıda keçiriləcək final matçı dünya mediasının diqqət mərkəzindədir




UEFA Avropa Liqasının mayın 29-da Bakıda keçiriləcək final matçı dünya mediasının gündəmində, idman ictimaiyyətinin diqqət mərkəzindədir. Finalda iki ingilis komandasının qarşılaşması Böyük Britaniyada bu oyuna marağı daha da artırıb.

AZƏRTAC xəbər verir ki, dünyanın məşhur ESPN kanalı da paytaxtımızda keçiriləcək həlledici görüş barədə veriliş hazırlayıb. UEFA Avropa Liqasının final oyununa həsr edilmiş xüsusi proqramda “Arsenal”ın erməni futbolçusu Henrix Mxitaryanın Bakıya gəlməməsinə geniş yer ayrılıb.

Kanalın eksperti, məşhur jurnalist Stiv Nikol “Arsenal”ın yarımmüdafiəçisi Henrix Mxitaryanın Bakıya gəlməməsinin əsas səbəbinin futbolçunun idman formasından kənar olması ilə əlaqələndirib. Məşhur jurnalist Henrix Mxitaryanın yaxşı formada olmadığını vurğulayaraq futbolçunun heyətdən kənarda qalmasının komandaya təsir göstərməyəcəyini deyib.

Bundan başqa, Stiv Nikol Bakı və Azərbaycan haqqında xoş sözlər söyləyərək azarkeşləri mütləq finala canlı baxmaq üçün ölkəmizə səfər etməyi çağırıb. O, finalın Bakıya həvalə edilməsinin UEFA tərəfindən düzgün qərar olduğunu vurğulayıb. Bildirib ki, bu, futbolun ümumilikdə Avropada populyarlaşmasına səbəb olacaq.

Avropanın digər böyük ölkəsi İtaliyada da oyuna maraq yüksəkdir. Dünyanın məşhur idman kanallarından olan “Skysport” final oyunu günü Bakıdan irihəcmli proqram hazırlayacaq. Bununla əlaqədar İtaliyanın tanınmış şərhçiləri Bakıya gələcəklər. Onlardan biri - vaxtilə ölkənin ən məşhur futbolçularından olan, hazırda isə “Skysport” kanalında şərhçilik edən Luka Markaciani deyib: “Bakıda yüksəksəviyyəli, böyük həvəs və diqqətlə hazırlıq işlərinin aparıldığı möhtəşəm final matçını gözləyirəm. Bu, Azərbaycan üçün çox önəmli tədbir olacaq. Bütün dünyanın diqqəti Bakıya yönələcək. Bu şəhər haqqında çox yaxşı şeylər eşitmişəm. Amma heç vaxt orada olmamışam. Ona görə də Azərbaycana səfərimi səbirsizliklə gözləyirəm. Bilirəm ki, Bakı çox gözəl və sürətlə inkişaf edən bir şəhərdir. Bakı çox mühüm tədbirlərə evsahibliyi edir. Bu işlər yüksək səviyyədə həyata keçirilir. Misal üçün, “Formula-1” üzrə nüfuzlu yarışın mərhələ yarışlarından biri Azərbaycanda keçirilir və şəhər yüksək təşkilatçılıq nümayiş etdirir. Belə yerlərə getməyi həmişə xoşlayıram. Ona görə də Bakıya getmək üçün artıq günləri sayıram. Hətta normal iş günümdən bir gün artıq qalmağı və şəhəri gəzməyi planlaşdırmışam. Mənim üçün fərqli bir səfər və təcrübə olacaq. İnanıram ki, Bakı UEFA Avropa Liqasının final görüşünü də ən yüksək standartlar səviyyəsində təşkil edəcək”.

Portuqaliyalı sabiq futbolçu Luiş Fiqu UEFA Avropa Liqasının Bakı finalı ilə bağlı növbəti dəfə azarkeşlərə müraciət edib. “Barselona” və Madridin “Real” komandasının əfsanəvi futbolçusu azarkeşləri final oyununa baxmağa dəvət edib: “Əziz dostlar, beş gün sonra Bakıda möhtəşəm final olacaq. Mən də orada olacağam. Bu anı əldən qaçırmayın”.

Qeyd edək ki, Luiş Fiqu bundan əvvəl Avroliqada fəaliyyət göstərəcək könüllülərə müraciət etmişdi.

Xatırladaq ki, UEFA Avropa Liqasının final görüşü mayın 29-da Bakının Olimpiya Stadionunda keçiriləcək. Həlledici oyunda İngiltərənin “Çelsi” və “Arsenal” komandaları qarşılaşacaq.

# *Erməni əsilli gimnast:* “Mxitaryanın yerində olsaydım, komandamla birgə Bakıya gələrdim”



“Bakıda yarışlar yüksək səviyyədə təşkil edilib. Burada hər şey çox mükəmməldir. Bakı təhlükəsiz şəhərdir. Ona görə də buradakı yarışlarda məmnuniyyətlə iştirak edirik. İnsanlar çox mehribandırlar. Hər məsələdə bizə kömək edirlər. Azərbaycanın milli xörəkləri çox dadlıdır. Burada qalmaq, məşqlər etmək üçün hər cür şərait var”.

Bunu mayın 24-də Bakıda start götürən aerobika üzrə 11-ci Avropa çempionatında iştirak edən erməni əsilli rusiyalı gimnast Duxik Canazyan AZƏRTAC-a müsahibəsində deyib.

“Bakı 2015” I Avropa Oyunlarında da iştirak etdiklərini vurğulayan gimnast bildirib: “Dörd il əvvəl Bakıda keçirilən I Avropa Oyunlarında iştirak etmişik. Bakıda gözəl idman ab-havası var. Milli Gimnastika Arenası qeyri-adi gözəlliyə malikdir. Burada azarkeşlər bütün gimnastlara, eləcə də bizə güclü dəstək verirlər”.

“Arsenal” komandasının erməni futbolçusu Henrix Mxitaryanın UEFA Avropa Liqasının Bakıda keçiriləcək final qarşılaşmasında iştirak etmək istəməməsinə münasibət bildirən gimnast deyib: “Düşünürəm ki, idmanla siyasəti qarışdırmaq düzgün deyil. Mən onun yerinə olsaydım, komandamı dəstəkləyib onun yanında olardım”.

***

Bakıda insanlar mehribandırlar. Onlar köməyə ehtiyac duyduğumuz zaman heç vaxt bunu əsirgəmirlər. Paytaxtınız çox gözəldir. İmkan olan kimi şəhəri gəzməyə çıxırıq. Burada tam sərbəst gəzə bilirik. 2015-ci ildə Bakıda keçirilmiş I Avropa Oyunlarında iştirak etmişik. Həmin yarışlardan xoş təəssüratlarla ayrılmışıq.

Bunu mayın 24-da Bakıda start götürən aerobika üzrə Avropa çempionatında Rusiyanı təmsil edən erməni əsilli gimnast Qarsevan Canazyan AZƏRTAC-a müsahibəsində deyib.

Bakıda heç bir təhlükə gözləmədiklərini vurğulayan idmançı bildirib: “Bakıda təhlükəsizlik çox yüksək səviyyədə təmin olunub. Bizi burada hər şey qane edir. Yarışların təşkilatçılığının yüksək səviyyədə olduğunu qeyd etmək istəyirəm. Bakıdakı yarışdan sonra II Avropa Oyunlarında da çıxış edəcəyik. Düşünürəm ki, hər şey yaxşı olacaq”.


## “Azərişıq” ASC Ağdam və Zaqatala elektrik şəbəkələrinin idarəetmə mərkəzlərinin tikintisi işlərinin satın alınması üzrə

## *açıq tender elan edir*

Tender 2 (iki) LOT üzrə keçirilir:

**LOT-1:** “Azərişıq” ASC-nin Ağdam Elektrik şəbəkəsinin idarəetmə mərkəzinin tikintisi işlərinin satın alınması - **400 manat**

**LOT-2:** “Azərişıq” ASC-nin Zaqatala Elektrik şəbəkəsinin idarəetmə mərkəzinin tikintisi işlərinin satın alınması - **400 manat**

**“Azərişıq” ASC**
**Hesab №: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab №: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ələsgər Qayıbov küç., 8 ünvanında yerləşən “Azərişıq” ASC-nin inzibati binasından ala bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs - Aşəd Ağayev (telefon: 440-39-93, daxili 22-83).

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*- müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **04 iyul 2019-cu il saat 16:00-a** qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə **11 iyul 2019-cu il saat 16:00-a** qədər Bakı şəhəri, Ələsgər Qayıbov küç., 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **12 iyul 2019-cu il saat 16:00-da** Bakı şəhəri, Ələsgər Qayıbov küç., 8 ünvanında “Azərişıq” ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***



## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Mərkəzi Bankının xəzinə infrastrukturunun fəaliyyətini və əskinasçeşidləyici sistemlərin istismarını təmin etmək üçün tələbata uyğun qablaşdırma materiallarının satın alınması məqsədilə elan edilmiş açıq tender üzrə Tender komissiyasının 25 aprel 2019-cu il tarixli qərarına əsasən “Aabacus” MMC və “Halal-P” MMC qalib seçilmişlər.

Qalib şirkətlərlə satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***


## ALLAH RƏHMƏT ELƏSİN!

“Azərbaycan” qəzeti redaksiyasının kollektivi qələm dostları Əhməd İsayevə qardaşı

**HÜSEYN ƏHMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin kollektivi Gəncə şəhər Probasiya şöbəsinin rəisi Elmar Cəfərova atası

**TEYYUB CƏFƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

“Aqrarkredit” Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Azərbaycan Respublikasının maliyyə naziri Samir Şərifova əzizi

**ELÇİN ŞƏRİFOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivi Ali Məhkəmənin əməkdaşı Malik Səlimova qardaşı

**İBRAHİM SƏLİMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi maliyyə naziri Samir Şərifova əzizi

**ELÇİN ŞƏRİFOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin kollektivi maliyyə naziri Samir Şərifova əzizi

**ELÇİN ŞƏRİFOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

“Azərenerji” ASC-nin prezidenti Baba Rzayev maliyyə naziri Samir Şərifova əzizi

**ELÇİN ŞƏRİFOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi Əhməd İsayevə və Tofiq Əhmədova əzizləri

**HÜSEYN ƏHMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Belal Həmid oğlu ailəsi ilə birlikdə Milli Məclisin deputatı Vahid Əhmədova qardaşı

**RAMİZ ƏHMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 9055
Sifariş 1709
Qiyməti 40 qəpik